Aqrar sahənin ixrac potensialının formalaşmasına təsir edən amillər üç qrupda birləşdirilə bilər. Birincisi, iqtisadiyyatda əsas istehsal amilləri ilə təmsil olunur: əmək, torpaq, kapital, sahibkarlıq qabiliyyəti və informasiya. İkinci qrupa aqrar istehsala bilavasitə təsir edən spesifik amillər daxildir ki, bunlar aqrar sahəyə dövlət dəstəyi, aqrar sənaye müəssisələrinin fəaliyyətinin iqlim xüsusiyyətləri, ölkədə kənd təsərrüfatı xammalının və ərzaq məhsullarının daxili istehlak səviyyəsi,

ölkənin ərzaq təhlükəsizliyi siyasətidir. Üçüncü qrupa aqrar sahə müəssisələrinin xarici bazarlara çıxışının təşkili və həmin sahə xammalının və istehsal etdiyi ərzaq məhsullarının xaricə çıxarılması ilə bağlı alətlər daxildir. Aqrar sahənin xarici iqtisadi fəaliyyətinin təşkili amilləri ixrac potensialının tərkib elementi və onun reallaşdırılması vasitəsi olmaqla həmin sahənin ixrac mexanizmini formalaşdırır. İxrac potensialının formalaşmasını və inkişafını şərtləndirən amillərdən biri də ölkədə təbii ehtiyatların mövcudluğu və onlardan istifadə səviyyəsidir. Təbii ehtiyatların mövcudluğu və onların inkişaf səviyyəsi məhsuldar qüvvələrin və xüsusilə maddi-texniki ehtiyatların inkişafını və bunun əsasında ölkənin ixrac potensialının inkişafını müəyyənləşdirir.

Ölkə əhalisinin ərzaq məhsullarına və onun sənayesinin xammala tələbatının təmin edilməsində önəmli rol oynayan aqrar sahənin inkişaf vəziyyətinin öyrənilməsi və qiymətləndirilməsi üçün elmi əsaslı iqtisadi mexanizmlərin olması xüsusilə vacibdir. Həqiqətən də elmi cəhətdən əsaslandırılmış və daha təkmil hesab olunan inkişaf mexanizmlərinin hazırlanması aqrar sahədə istehsal ehtiyatlarının formalaşmasında və daha səmərəli istifadəsində mövcud və ya potensial problemlərin vaxtında aradan qaldırılmasında önəmli rol oynaya bilər. Belə ki, aqrar sahənin və onun ayrı-ayrı sahələrinin, xüsusən də həmin sahənin önəmli tərkib hissəsi olan kənd təsərrüfatının inkişafına təsir göstərən istehsal potensialının formalaşdırılması və qiymətləndirilməsinin yeni üsul və modellərinin müəyyənləşdirilməsi ölkənin aqrar ixrac potensialının artırılmasını daha da aktuallaşdırır [3, s.3].

Nəticə

Beləliklə, son dövrlər Azərbaycanın dünyanın bir sıra ölkələri ilə xarici iqtisadi əlaqələri genişlənir və möhkəmlənir ki, bu da idxal-ixrac əməliyyatlarının artmasına gətirib çıxarır. Hazırda respublikamızın ixrac strukturunda əsas ixrac sahəsini xam neft, qaz və neft məhsullarının ixracı təşkil edir. Amma Azərbaycanın digər sənaye sahələrinin də böyük ixrac potensialı var ki, bunlara, ilk öncə, aqrar sahə daxildir. Odur ki, həmin sahənin inkişaf etdirilməsi və ixrac potensialının artırılması zəruridir. Aqrar sahənin və onun ixrac potensialının inkişaf etdirilməsi üçün strateji planlaşdırma tətbiq edilməli, həmin planlaşdırmanın əsas prioritet istiqamətlərinin aşağıdakıların olması məqsədəuyğundur:

- ✓ qanunvericilik iqtisadi münasibətlərinin təkmilləşdirilməsi;
- ✓ xarici ölkələrdə ölkənin aqrar bazarlarının inkişafı;
- ✓ aqrar sahədə institusional dəyişikliklər;
- ✓ qiymət konyunkturasının sabitləşdirilməsi və kənd təsərrüfatı istehsalçılarının əhəmiyyətli qiymət dalğalanmalarından qorunması;
- ✓ brendlərin patentləşdirilməsi və qorunması xərclərinin bir hissəsinin kompensasiyası, yerli istehsal olunan məhsulların xarici bazarlarda tanınmasının gücləndirilməsi;
- ✓ aqrar sahə məhsullarının daşınması və saxlanması xərclərinin bir hissəsinin subsidiyalaşdırılması;
- ✓ yeni bazarlara çıxışa maneələrin aradan qaldırılması, o cümlədən texniki tənzimləmə və sertifikatlaşdırma baxımından, texnoloji avadanlıqların və iş standartlarının səviyyəsinin yüksəldilməsi;
- ✓ təchizat və çeşidlərin coğrafiyasının genişləndirilməsi;
- ✓ torpaq münasibətlərinin transformasiyası;
- ✓ kənd təsərrüfatının yaşıllaşdırılması və iqlim dəyişikliyinə uyğunlaşma nəzərə alınmaqla aqrar-sənaye istehsalının yerləşdirilməsinin rasionallığı;
- ✓ tədqiqat sahəsinin və təhsilin yeniliklərinin istehlakçıya ötürülməsi;
- ✓ kənd iqtisadiyyatının şaxələndirilməsi və s.

Aqrar sahənin və onun ixrac potensialının daha da inkişaf etdirilməsi ixrac siyasətində dəyişikliklər, aqrar-ərzaq məhsullarının ayrı-ayrı növləri üzrə idxaldan asılılığın aradan qaldırılması baxımından vəzifələr nəzərə alınmaqla reallaşdırılmalıdır.

ƏDƏBİYYAT

1. Əkbərov, E.H. Kənd təsərrüfatı məhsulları ixracının stimullaşdırıcı istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı./ – Bakı, 2024. – 30 s.
2. Həsənova M.S. İxrac yönümlü kənd təsərrüfatı istehsalının inkişaf istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı./ – Bakı, 2022. – 28 s.
3. Həsənova, Ş.K. Aqrar sahədə istehsal potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı./ – Bakı, 2024. – 32 s.
4. Quliyev, E.A. Aqrar iqtisadiyyat. Ali məktəb tələbələri üçün dərslik. – Bakı: Kooperasiya nəşriyyatı, – 2015, – 320 s.
5. Nərimanov, N.A. Azərbaycan Respublikasında aqrar ixracın stimullaşdırılmasının iqtisadi mexanizminin təkmilləşdirilməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı./ – Gəncə, 2021. – 32 s.
6. Дьячкова, С.П., Кондратьева, Н.Н., Касаткин, В.В. Теоретические аспекты развития агропромышленного комплекса // Вестник НГИЭИ. – 2019. № 6 (97), – с. 86–95.
7. Мелешко, К. Научные теории и основы формирования экспортного потенциала агропродовольственной сферы / К. Мелешко // Аграрная экономика. – 2019. № 7(290), – с. 11-22.
8. Мирзазаде, Н.Г. Экспортный потенциал аграрной отрасли Азербайджана: возможности и приоритеты / Н.Г. Мирзазаде // Вестник Вятского ГАТУ. – 2023. № 1(15), – с.1-15.
9. Насибова, Ч.Н. Экспортный потенциал аграрной отрасли Азербайджана в современных условиях / Ч.Н. Насибова // Вестник Кыргызского национального аграрного университета им. К.И. Скрябина. – 2021. № 2(56), – с. 747-752.
10. Ярошевский, И.М. «Экспортный потенциал»: его функции, направления формирования и возможности оценки / И. М. Ярошевский // Экономика и управление: проблемы, решения. – 2024. – Т. 3, № 7(147), – с. 22-29.

Юсиф Али оглы Гасанлы,
Докторант Азербайджанского Университета Кооперации,
E-mail:yusifhasanli300@gmail.com

Теоретическое исследование повышения экспортного потенциала в аграрном секторе Азербайджана

Резюме

Целью исследования - является изучение повышения экспортного потенциала в сельскохозяйственной сфере Азербайджана с теоретической точки зрения.

Методология исследования – в основном были использованы методы научной абстракции, синтеза, сравнительного анализа и обобщения. Наряду с этим имеются упоминания об исследованиях, проводимых в направлении изучения потенциала аграрного сектора и роли экспорта в его развитии.

Прикладная значимость исследования – в первую очередь планируется разработать более совершенные механизмы для повышения экспортного потенциала в аграрной сфере в современную эпоху.

Результаты исследования связаны с возможностью использования полученных результатов в современных условиях с целью организации более эффективных мер по развитию аграрного сектора и повышению его экспортного потенциала.

Оригинальность и научная новизна исследования более очевидна при научно-аргументированном обосновании важности повышения экспортного потенциала в развитии аграрного сектора. Кроме того, подходя к стратегической роли аграрного сектора в

диверсификации экономики и укреплении продовольственной безопасности страны, были высказаны предложения по увеличению экспортного потенциала страны.

Ключевые слова: Азербайджан, аграрный сектор, экспорт, экспортный потенциал, проблемы развития аграрного сектора, экспортный потенциал аграрного сектора, повышение экспортного потенциала

Yusif Ali Hasanli
Doctoral student of Azerbaijan Cooperation University,
E-mail: yusifhasanli300@gmail.com

Theoretical investigation of increasing export potential in the agricultural sector of Azerbaijan

Summary

The purpose of the research is to study the increase in export potential in the agricultural sector of Azerbaijan from a theoretical point of view.

The research methodology is mainly used methods of scientific abstraction, synthesis, comparative analysis and generalization. At the same time, there are references to the research conducted in the direction of studying the potential of the agrarian sector and the role of exports in its development.

The applied significance of the research - first of all, it is planned to develop more advanced mechanisms to increase export potential in the agricultural sector in the modern era.

The results of the research are related to the possibility of using the results obtained in modern conditions in order to organize more effective measures to develop the agricultural sector and increase its export potential.

The originality and scientific novelty of the research is more obvious with a scientifically reasoned justification of the importance of increasing export potential in the development of the agricultural sector. In addition, approaching the strategic role of the agricultural sector in diversifying the economy and strengthening the country's food security, proposals were made to increase its export potential.

Key words: Azerbaijan, agricultural sector, exports, export potential, problems of development of the agricultural sector, export potential of the agricultural sector, increasing export potential.

UOT 330

Murad İlham oğlu QASIMZADƏ
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
“Kapitalbank” ASC, məlumat keyfiyyəti üzrə baş mühəndis
E-mail: murad.gasimzade777@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.003.039

MÜASİR SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ LOGİSTİKA SİSTEMİNƏ İNTEQRASİYASI

Xülasə

Tədqiqatın məqsədi süni intellektin logistika və təchizat zəncirinin idarə edilməsindəki rolunu və onun müasir texnologiyalar vasitəsilə sektorda yaratdığı dəyişiklikləri dərin təhlil etməyi hədəfləyir. Məqsəd, süni intellektin ehtiyat idarəetməsi, tələb proqnozlaşdırması, marşrut optimallaşdırması, anbar avtomatlaşdırması və müştəri xidmətləri kimi əsas sahələrə necə inteqrasiya olunduğunu və bu inteqrasiyanın effektivliyini araşdırmaqdır.

Tədqiqatın metodologiyasında əsasən analitik və müqayisəli yanaşmadan istifadə edilmişdir. Real şirkət nümunəsi kimi Amazon-un süni intellekt tətbiqindən əvvəlki və sonrakı logistika sistemi müqayisə olunmuş, həmçinin DHL və Tesla kimi aparıcı şirkətlərin təcrübələri əsasında praktiki müşahidələr təqdim edilmişdir. Eyni zamanda, süni intellektin funksional imkanları müxtəlif logistik proseslərə təsiri kontekstində təhlil olunmuşdur.

Tətbiqi əhəmiyyəti logistika və təchizat zəncirinin optimallaşdırılmasında süni intellektin tətbiqinin müəssisələr üçün necə dəyər yaratdığını göstərir. O, xərclərin azaldılması, səmərəliliyin artırılması, müştəri məmnuniyyətinin yüksəldilməsi və risklərin azaldılması baxımından strateji qərarların qəbuluna töhfə verir. Bu, həm dövlət, həm də özəl sektor üçün praktiki tövsiyələr təklif edir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından süni intellektin logistikaya inteqrasiyasını yalnız texniki və funksional aspektlərdən deyil, həm də etik, sosial və tənzimləyici kontekstlərdə çoxşaxəli şəkildə qiymətləndirir. Amazonun logistik sistemində baş verən transformasiyanın ətraflı müqayisəli təhlili bu sahədəki nadir araşdırmalardandır və real tətbiq nümunəsi ilə nəzəri bilikləri birləşdirir. Bu iş süni intellektin logistika sahəsində yaradıcı və inteqrativ potensialını vurğulayaraq, yeni nəsil təchizat zənciri modellərinin formalaşdırılmasına elmi baxımdan yeni baxış təqdim edir. Eyni zamanda, proqnozlaşdırılan texniki xidmət, dinamik marşrut planlaması və fərdiləşdirilmiş çatdırılma kimi yenilikçi yanaşmaların gələcək tədqiqat istiqamətləri üçün zəmin yaratması ilə seçilir.

Açar sözlər: logistika, süni intellekt, qloballaşma, blokçeyn, optimallaşdırma.

Giriş

Süni intellekt tələbin proqnozlaşdırılmasından tutmuş inventar idarəetməsinə qədər müxtəlif aspektləri optimallaşdırmaqla təchizat zəncirinin idarə edilməsində inqilab etmişdir. Ənənəvi olaraq tələbin proqnozlaşdırılması tarixi məlumatlara və statistik modellərə əsaslanırdı. Süni intellekt real vaxt bazar şəraiti, müştəri davranışı və iqtisadi göstəricilər də daxil olmaqla geniş məlumat dəstlərini təhlil etmək üçün maşın öyrənmə alqoritmlərindən istifadə etməkdədir. Bu daha dəqiq tələb proqnozlarına gətirib çıxarmaqla, ehtiyatların çox olması və ya ehtiyatların tükənməsi riskini azaldır.

Süni inventar gələcək tələbi proqnozlaşdırmaqla və inventar səviyyələrini optimallaşdırmaqla ehtiyatın daha səmərəli doldurulmasına gətirib çıxarır. Maşın öyrənmə modelləri optimal inventar səviyyələrini müəyyən etmək, saxlama xərclərini azaltmaq və köhnəlmə riskini minimuma endirmək üçün satış nümunələrini, mövsümi meyilləri və xarici amilləri təhlil etməkdədir. Süni intellektlə idarə olunan marşrut optimallaşdırma vasitələri ən səmərəli çatdırılma marşrutlarını müəyyən etmək

üçün yol şəraiti, hava şəraiti və nəqliyyat vasitəsinin mövcudluğu kimi müxtəlif amilləri nəzərə almaqla, yanacaq sərfiyyatını, həmçinin nəqliyyat xərclərini azaltmaqla yanaşı, həm də çatdırılma sürətini və etibarlılığını artırmaq üçün əvəzolunmaz tədbirlərdəndir. Süni intellekt çatdırılma müddətləri, məhsulun keyfiyyəti və dəyəri ilə bağlı məlumatları təhlil edərək təchizatçının performansını qiymətləndirir. Şirkətlərə ən yaxşı təchizatçıları seçməyə, həmçinin əlaqələri daha effektiv idarə etməyə imkan verməklə, daha möhkəm təchizat zənciri yaratmağa gətirib çıxarır [6].

Süni intellektlə işləyən avtomatlaşdırma və robot texnikası logistika mənzərəsini yenidən formalaşdırır. Bu texnologiyalar səmərəliliyi artırmaq və əmək xərclərini azaltmaq üçün anbarlarda, paylama mərkəzlərində və nəqliyyat şəbəkələrində getdikcə daha çox tətbiq olunmaqdadır. Anbarın avtomatlaşdırılması zamanı süni intellektlə idarə olunan robotlar müasir anbarlarda adi hala çevrilmişdir. Müvafiq robotlar malların yığılması, qablaşdırılması və çeşidlənməsi kimi vəzifələri yerinə yetirərək əməliyyatları əhəmiyyətli dərəcədə sürətləndirir. Onlar insan işçiləri ilə yanaşı işləyir, təkrarlanan və fiziki cəhətdən tələb olunan tapşırıqların öhdəsindən gəlir, mümkün insan səhvlərini azaldır və məhsuldarlığı artırır.

Avtonom nəqliyyat vasitələri, əsasən süni intellektlə idarə olunan özü idarə olunan yük maşınları və dronlar nəqliyyat logistikasında inqilab etməyə hazırlaşır. Avtonom yük maşınları istirahətə ehtiyac olmadan 24/7 işləyə bilər, çatdırılma müddətlərini və xərcləri azaldır. Dronlar daha sürətli və daha çevik çatdırılma variantları təklif edərək, şəhər yerlərində son ünvana çatdırılma üçün istifadə olunur. Süni intellekt, komponentin nə vaxt sıradan çıxacağını təxmin etmək üçün sensorlardan gələn məlumatları təhlil edərək nəqliyyat vasitələri və maşınlar kimi logistik avadanlıqlara proqnozlaşdırılan texniki xidmət göstərməyə imkan verir. Mövcud proaktiv yanaşma dayanma müddətini azaldır, avadanlığın xidmət müddətini uzadır və texniki xidmət xərclərini azaldır. Süni intellekt daha fərdiləşdirilmiş və səmərəli xidmətlər təqdim etməklə logistika sahəsində müştəri təcrübəsini dəyişdirməkdə davam edir. Süni intellekt alqoritmləri üstünlük verilən çatdırılma vaxtları və ya yerlər kimi fərdiləşdirilmiş çatdırılma variantlarını təklif etmək üçün müştəri məlumatlarını təhlil etməkdədir. Bu həm müştəri məmnuniyyətini artırır, həm də biznesin təkrarlanma ehtimalını yüksəldir. Süni intellekt malların yeri və statusu haqqında real vaxt yeniləmələri təqdim etməklə göndərişin izlənilməsini gücləndirir. Müştərilər bu məlumatı proqramlar və ya veb-saytlar vasitəsilə əldə etməklə, bu logistika provayderinə daha çox şəffaflıq və etibara gətirib çıxaracaqdır. Çatbotlar və virtual köməkçilər sorğuları idarə etmək və problemləri tez həll etmək üçün müştəri xidmətlərində getdikcə daha çox istifadə olunmaqdadır. Müvafiq sistemlər 24/7 işləyir, ani cavablar verir və daha mürəkkəb tapşırıqların öhdəsindən gəlmək üçün insan agentlərindən asılılığı azaldır [1].

COVID-19 pandemiyası tədarük zəncirinin davamlılığının vacibliyini vurğulamaqla yanaşı, süni intellektə daha möhkəm təchizat zəncirlərinin qurulmasında kritik vasitə kimi yanaşmanı ortaya çıxarmışdır. Süni intellekt müxtəlif mənbələrdən, xüsusilə hava proqnozları, geosiyasi hadisələr və bazar tendensiyaları kimi məlumatları təhlil edərək riskləri müəyyənləşdirmək və mümkün dərəcədə azaltmaq əsas istiqamətlərdən hesab olunmaqdadır. O, həmçinin təbii fəlakətin tədarük zəncirinə təsirini proqnozlaşdıra və pozulmaları minimuma endirmək üçün alternativ yollar və ya təchizatçılar təklif edə bilər.

Süni intellektin logistika sistemlərində praktiki tətbiq sahələri

Süni intellektin logistika sahəsində tətbiqi təkcə nəzəri potensialla məhdudlaşmır – bu texnologiyalar artıq real həyatda geniş istifadə edilir. Aşağıda logistikanın müxtəlif sahələrində süni intellektin tətbiqinə dair əsas istiqamətlər və nümunələr təqdim olunur.

1. Tələb proqnozlaşdırılması və ehtiyatların idarə olunması

Süni intellektə əsaslanan alqoritmlər böyük həcmli tarixi satış, bazar trendləri, mövsümi dəyişikliklər və hətta hava şəraiti kimi məlumatları analiz edərək, məhsul tələbatını yüksək dəqiqliklə proqnozlaşdıra bilir. Bu, müəssisələrin ehtiyatları daha səmərəli idarə etməsinə, artıq stokdan və ya məhsul çatışmazlığından yaranan zərərləri azaltmasına kömək edir. Məsələn, **Walmart** şirkəti süni intellektin köməyi ilə stok idarəetməsini optimallaşdıraraq, məhsul çatışmazlığını

30%-ə qədər azalda bilmişdir.

2. Marşrut optimallaşdırılması və nəqliyyatın idarə olunması

Avtomatik marşrut planlaşdırma sistemləri Sİ texnologiyaları vasitəsilə real vaxt trafik məlumatlarını, hava şəraitini və sifarişlərin prioritetlərini analiz edərək, ən effektiv çatdırılma yollarını müəyyən edir. Bu, çatdırılma vaxtını qısaldır və yanacaq xərclərini azaldır. **UPS** bu sahədə tətbiq etdiyi ORION adlı sistem vasitəsilə illik 100 milyon dollardan artıq qənaət etdiyini bildirmişdir.

3. Anbar avtomatlaşdırması və robototexnika

Müasir anbarlarda süni intellekt əsaslı robotlar məhsulların qəbulundan çeşidlənməsinə, saxlanmasından yığılmasına qədər bir çox prosesi avtomatlaşdırır. Bu, işçi qüvvəsinə olan tələbatı azaldır və eyni zamanda məhsuldarlığı artırır. **Amazon** şirkətinin anbarlarında istifadə olunan **Kiva** robotları bunun bariz nümunəsidir. Bu robotlar saniyələr içində müəyyən məhsulu tapıb yükləmə zonasına gətirə bilir.

4. Müştəri xidməti və istifadəçi təcrübəsinin fərdiləşdirilməsi

Süni intellekt texnologiyaları müştəri sorğularını cavablandırmaq, çatdırılma barədə məlumat vermək və şikayətləri qəbul etmək üçün çatbotlar və avtomatik cavab sistemləri şəklində istifadə olunur. Bu sistemlər 24/7 rejimində işləyərək, müştəri məmnuniyyətini artırır və şirkətlərə əlavə personal ehtiyacını azaltmağa imkan verir. Məsələn, **DHL** süni intellekt əsaslı virtual operatorlar vasitəsilə gündə minlərlə müştəri müraciətini avtomatik cavablandırır [3].

Uyğunlaşma süni intellektə təchizat zəncirlərinə tələb və ya təklif şərtlərindəki dəyişikliklərə tez uyğunlaşmağa imkan verir. Xüsusilə pandemiya zamanı süni intellektlə idarə olunan təchizat zəncirlərinə malik şirkətlər, onlayn alış-veriş və evə çatdırılma tələbinin artması kimi istehlakçı davranışındakı qəfil dəyişiklikləri daha yaxşı cavablandırmağa imkan vermişdilər. Süni intellektlə işləyən alətlər müxtəlif ssenariləri simulyasiya etməli və onların təchizat zəncirinə potensial təsirini qiymətləndirməlidir. Müvafiq tədbirlər şirkətlərə müxtəlif gözlənilməz hallara hazırlaşmaq və real vaxt rejimində əsaslandırılmış qərarlar qəbul etmək imkanı yaradır.

Çoxlu faydalarına baxmayaraq süni intellektin logistikaya inteqrasiyası həll edilməli olan bir sıra etik narahatlıqları və problemləri mövcuddur:

- Məlumat məxfiliyi - Süni intellekt sistemləri əsasən məlumatlara güvənsə də müvafiq məlumatların toplanması və istifadəsi məxfiliklə bağlı narahatlıqlar yaratmaqdadır. Şirkətlər məlumatların qorunması qaydalarına riayət etməli və müştəri məlumatlarını qorumaq üçün ən yaxşı təcrübələri qəbul etməlidir.
- İş yerinin dəyişdirilməsi - Süni intellekt vasitəsilə logistika proseslərinin avtomatlaşdırılması, xüsusən də təkrarlanan və ya əl işlərini əhatə edən vəzifələrdə iş yerlərinin dəyişdirilməsinə səbəb olacaqdır. Süni intellekt verilənlərin təhlili və süni intellekt idarəetməsi kimi sahələrdə yeni iş imkanları yaratsa da, iş yerlərinin itirilməsinin potensial sosial təsirini nəzərə almaq məqsədəuyğun tədbirlərdən hesab olunur.
- Qərəz və ədalətlilik - Alqoritmlərinin şəffaf və ədalətli olmasını təmin etmək, xüsusilə təchizatçı seçimi və ya işçilərin fəaliyyətinin qiymətləndirilməsi kimi qərarların qəbulu proseslərində mühüm istiqamətlərdəndir.
- Tənzimləmə uyğunluğu - Süni intellekt inkişaf etməyə davam etdikcə, tənzimləmə mənzərəsi də düz mütənasib inkişaf etməkdədir. Şirkətlər süni intellektdən maksimum istifadə etməklə uyğunluğu təmin etməlidirlər. Uyğunluq tədbirləri sənaye üçün xüsusi standartlara riayət etməyi və süni intellektlə bağlı yeni qanunlar və təlimatlardan xəbərdar olmağı əhatə edir [5].

Bir neçə aparıcı şirkət süni intellekti logistika əməliyyatlarına uğurla inteqrasiya edərək, süni intellektin tətbiqinin faydaları və çətinlikləri haqqında dəyərli fikirlər təqdim etmişdir. Amazon, anbar əməliyyatlarını sadələşdirmək üçün robotlar və maşın öyrənmə alqoritmlərindən istifadə edərək süni intellektlə idarə olunan logistikanın ön sıralarındadır. Amazonun süni intellekt sistemləri inventar idarəetməsini optimallaşdırır, müştəri tələbini proqnozlaşdırır və çatdırılma sürətini artırmaqla, onun elektron ticarətdə üstünlük təşkil etməsinə töhfə verir. Logistika sahəsində qlobal lider olan DHL əməliyyat səmərəliliyini artırmaq üçün süni intellektə əsaslanan proqnozlaşdırıcı

analitika tətbiq etmişdir. Tarixi məlumatları və xarici amilləri təhlil edərək, DHL-in süni intellekt sistemləri texniki xidmət ehtiyaclarını proqnozlaşdırmaq, marşrutları optimallaşdırmaq və çatdırılma müddətlərini yaxşılaşdırmaq mümkündür. Teslanın avtonom yük maşınlarının inkişafı süni intellektlə işləyən nəqliyyat logistikasında əhəmiyyətli irəliləyişi təmsil edir. Süni intellektlə idarə olunan sensorlar və naviqasiya sistemləri ilə təchiz olunmuş bu yük maşınları minimum insan müdaxiləsi ilə uzun məsafələrə daşıma qabiliyyətinə malik olmaqla, insan sürücülərindən asılılığı və mümkün xərcləri azaldır.

Süni intellekt əsrində logistikanın gələcəyi imkanlarla doludur. Belə ki, süni intellekt inkişaf etməyə və digər inkişaf etməkdə olan texnologiyalarla inteqrasiyaya təkan verməkdədir. O, resurs istifadəsini optimallaşdırmaq və emissiyaları azaltmaqla logistikanı daha davamlı etmək potensialına malikdir. Yanacaq sərfiyyatını minimuma endirmək üçün nəqliyyat marşrutlarını optimallaşdırmağı və ya ətraf mühitə təsiri azaltmaq üçün anbarlarda enerji istifadəsini idarə etməyi nümunə göstərmək olar. Süni intellektin blokçeyn, əşyaların interneti və 5G kimi texnologiyalarla birləşməsi daha da səmərəli və təhlükəsiz təchizat zəncirləri yaratmağı vəd edir. Blokçeyn əməliyyatların şəffaf və saxtalaşdırılmayan qeydlərini təmin edə, əşyaların interneti cihazları isə süni intellekt sistemlərinin təhlili üçün real vaxt məlumatları yarada bilər. Potensiallara baxmayaraq, süni intellektin logistikada geniş tətbiqi bir sıra problemlərlə üzləşir. Bunlara etibarlı məlumat və möhkəm infrastruktur ehtiyacı kimi texnoloji maneələr, eləcə də süni intellektin tətbiqinin dəyəri və onun işçi qüvvəsinə təsiri kimi iqtisadi və sosial mülahizələr daxildir. Süni intellekt daha da təkmilləşdikcə, qərarların qəbulu və əməliyyatlarda mərkəzi rol oynayan bu sistem ilə logistika sahəsində yeni biznes modellərinin meydana çıxacağını müşahidə edə bilərik. Süni intellekt texnologiyasının davamlı inkişafı ilə logistika sənayesi çox güman ki, daha çevik, səmərəli və müştəri mərkəzli inkişaf etmiş müasir sistemə çevriləcəkdir.

Nümunə olaraq Amazon şirkətini və onun süni intellektdən əvvəl və sonrakı logistika sistemini ətraflı müqayisə etməq məqsədəuyğun hesab olunacaqdır.

Süni intellektdən əvvəl Amazon Logistics anbar əməliyyatlarında əl əməyinə əsaslanırdı. Anbarlar məhsulların götürülməsi, qablaşdırılması və çeşidlənməsi üçün əsasən insan işçilərinə güvənirdi. Digər tərəfdən ənənəvi saxlama sistemləri işçilərdən əşyaları götürmək üçün uzun məsafə qət etmələrini tələb edirdi. Çeşidləmə və qablaşdırma əl ilə həyata keçirilən proseslər idi və gecikmələrə səbəb olurdu. Sifarişin yerinə yetirilməsində isə insan səhvləri düzgün göndərməmələrə səbəb olmaqda idi. Ehtiyatların idarə edilməsi zamanı səhmlərin əllə hesablanmasında işçilər yavaş və səhvlərə meylli olan ehtiyat auditlərini əl ilə həyata keçirmişdilər. Həddindən artıq ehtiyat və çatışmazlıqlar yaranmağa başlamışdır. Zəif tələbin proqnozlaşdırılması çox vaxt ehtiyatların artıqlaması və ya ehtiyatların tükənməsi ilə nəticələnir, qərarlar isə real vaxt məlumatlarına deyil, keçmiş tendensiyalara əsaslanırdı. Çatdırılma maşınları statik marşrutları izlədi, bu da yanacaq sərfiyyatının səmərəsiz olmasına səbəb olmuşdu. İnsan dispetçerləri real vaxt trafik anlayışları olmadan çatdırılmaları təyin etdilər. Standart çatdırılma müddətləri 5-7 gün arasında dəyişirdi. Müştərilər real vaxt izləmə olmadan təxmini çatdırılma tarixlərinə etibar etməli idilər. İnsan müştəri xidməti agentləri sorğuları idarə edir və bu, uzun gözləmə müddətlərinə səbəb olurdu. Qaytarma prosesi yavaş olmaqla yanaşı insan müdaxiləsini tələb edirdi [2].

Süni intellektin tətbiqindən sonra Amazon Logistics anbar əməliyyatlarında 750.000-dən çox süni intellektlə işləyən robotlar çalışır və səmərəliliyi artırır. Süni intellekt elementlərin yerləşdirilməsini optimallaşdırır, işçinin səyahət vaxtını 40% azaldır, onunla işləyən konveyer kəmərləri əşyaları daha sürətli və 99,9% dəqiqliklə çeşidləyir və daşınmazdan əvvəl zədələnmiş məhsulları aşkarlayır və geri qaytarılmasını azaldır. Süni intellekt əsasında maşın öyrənməsi tələbi 90% dəqiqliklə proqnozlaşdırır, ehtiyat çatışmazlığının qarşısı alınır. Avtomatlaşdırılmış yenidən hazırlanma prosesində süni intellekt tükənməzdən əvvəl ehtiyatı avtomatik olaraq doldurur və gecikmələri azaldır.

Sensorlar və AI anbar səviyyələrini davamlı olaraq yeniləyir, dəqiqliyi artırır. Çatdırılma vasitələri ən sürətli marşrutları tapmaq üçün süni intellektdən istifadə edərək yanacaq xərclərini

27% azaldır. Süni intellekt eyni gündə və bir günlük çatdırılmanı mümkünləşdirdi və bu, əvvəlki 5-7 gündən böyük təkmilləşdirmədir. O, həmçinin geri qaytarma təsdiq prosesini sürətləndirir, gözləmə vaxtlarını azaldır.

Cədvəl 1.

Logistika sisteminə süni intelekt inteqrasiyasının təsiri

Göstərici	AI-dən Əvvəl	AI-dən Sonra	Dəyişiklik (%)
Proqnoz dəqiqliyi	Təxminən 60%	Təxminən 85–95%	+40–58%
Anbar xərcləri (gəlirin faizi ilə)	10–15%	6–9%	–30–40%
Vaxtında çatdırılma səviyyəsi	Təxminən 75%	90–98%	+20–30%
Anbarda yığım dəqiqliyi	Təxminən 90%	Təxminən 99%	+10%
Logistika xərci (satışa nisbətdə)	12–14%	8–10%	–25–35%
Orta çatdırılma müddəti (gün)	3–5 gün	1–2 gün	–50–70%
Avtoparkdan istifadə səmərəliliyi	Təxminən 60–70%	85–95%	+25–40%
Göndəriş başına CO_2 emissiyası (kq)	Təxminən 5.0 kq	Təxminən 3.2 kq	–36%
Səhvlərə görə geri qaytarmalar	Təxminən 8%	2–3%	–60–75%
Müştəri məmnuniyyəti (100 üzərindən)	Təxminən 70	85–90	+20–30%

Mənbə: müxtəlif ədəbiyyat mənbələri əsasında müəllif tərəfindən ümumiləşdirilmişdir.

Süni intellekt Amazon-un logistikasını dəyişdi, xərcləri azaltdı, səmərəliliyi artırdı və daha sürətli çatdırılmaları mümkün etdi.

Gələcək perspektivlər və çağırışlar

Süni intellekt texnologiyalarının logistika sahəsində gələcəkdə daha da dərinləşəcəyi gözlənilir. Xüsusilə **tamamilə avtonom nəqliyyat vasitələri**, **təchizat zənciri boyunca real vaxt analitika**, **kiberfiziki sistemlər** və **blokçeyn texnologiyaları ilə inteqrasiya** bu sahənin transformasiyasına səbəb olacaq əsas istiqamətlərdəndir [4].

Bununla belə, bəzi çağırışlar da mövcuddur:

- **Etik və hüquqi problemlər** – Alqoritmlərin qərarvermə prosesində şəffaflıq çatışmazlığı, məlumatların toplanması və istifadəsi ilə bağlı məxfilik məsələləri diqqətdə saxlanmalıdır.
- **İşçi qüvvəsinin uyğunlaşdırılması** – Sİ texnologiyalarının tətbiqi ilə ənənəvi logistika işlərinin bir hissəsi avtomatlaşdırılır. Bu isə yeni bacarıqların tələb olunduğu işlərə keçidi və təhsil proqramlarının yenilənməsini zəruri edir.
- **Texnoloji asılılıq və təhlükəsizlik riskləri** – Bütün sistemin avtomatlaşdırılması texniki xətalara və kiberhücumlara qarşı həssaslığı artırır. Bu səbəbdən təhlükəsizlik və davamlılıq planları ön planda olmalıdır.

Nəticə

Süni intellektin logistikaya inteqrasiyası sənayeni yenidən formalaşdıran bir paradiqma dəyişikliyini təmsil edir. Təchizat zəncirlərinin optimallaşdırılmasından müştəri təcrübəsinin artırılmasına və daha davamlı əməliyyatların qurulmasına qədər süni intellekt logistika mənzərəsində əhəmiyyətli təkmilləşdirmələrə təkan verməklə, müvafiq irəliləyişlər etik mülahizələr və tənzimləyicilərə uyğunluq ehtiyacı da daxil olmaqla çətinliklərlə yaranmaqdadır.

Gələcəyə baxdığımız zaman süni intellektin davamlı təkamülü yeni imkanların açılmasını və logistikanı bizim təsəvvür etməyə başladığımız tərzdə çevirməyi vadar edir. Süni intellektdən istifadə edən, həmçinin lazımi infrastruktura və bacarıqlara sərmayə qoyan şirkətlər müvafiq yeni logistika dövründə inkişaf etmək üçün yaxşı mövqe tutacaqlar.

Süni intellektin logistika sahəsinə inteqrasiyası son illərdə bu sahədə köklü dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi metodların məhdudiyyətlərini aradan qaldıraraq, süni intellekt texnologiyaları təchizat zəncirinin müxtəlif mərhələlərində effektivliyin artırılmasına, xərclərin azaldılmasına və xidmət keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir. Xüsusilə tələb proqnozlaşdırılması,

inventar idarəetməsi, marşrut optimallaşdırılması və çatdırılma sürətinin artırılması kimi əsas sahələrdə süni intellektin tətbiqi daha çevik və dayanıqlı logistika sistemlərinin formalaşmasına imkan yaratmışdır.

Süni intellekt əsaslı avtomatlaşdırma texnologiyaları, o cümlədən robotlar və avtonom nəqliyyat vasitələri, əməliyyatların daha az insan resursu ilə, lakin daha yüksək məhsuldarlıqla həyata keçirilməsinə şərait yaradır. Bu isə bir tərəfdən əməyin səmərəliliyini artırır, digər tərəfdən isə potensial sosial və etik çağırışlar doğurur. Müştəri xidmətləri sahəsində süni intellekt əsaslı sistemlər – çatbotlar, real vaxt izləmə və fərdiləşdirilmiş xidmətlər – istifadəçi məmnuniyyətini və şəffaflığı önəmli dərəcədə artırır.

Pandemiya dövründə və ondan sonrakı mərhələdə süni intellektin logistikaya tətbiqi bizneslərin dəyişkən şəraitə daha tez uyğunlaşmasını və gözlənilməz risklərə qarşı dayanıqlı olmasını təmin etmişdir. Amazon və DHL kimi qabaqcıl şirkətlərin təcrübələri göstərir ki, süni intellektin uğurlu tətbiqi yalnız texnoloji üstünlük deyil, həm də strateji rəqabət üstünlüyü qazandırır.

Bununla belə, süni intellektin logistika sahəsində geniş tətbiqi ilə yanaşı, məlumat məxfiliyi, iş yerlərinin dəyişməsi, alqoritmik qərəz və hüquqi uyğunluq kimi mühüm problemlər də aktuallığını qoruyur. Bu problemlərin aradan qaldırılması üçün texnologiya ilə yanaşı etik, hüquqi və sosial çərçivələrin də təkmilləşdirilməsi vacibdir.

Nəticə etibarilə, süni intellekt texnologiyalarının logistika sisteminə inteqrasiyası bu sahənin gələcəyini formalaşdıran əsas amillərdən birinə çevrilmişdir. Davamlı innovasiyalar və məsuliyyətli yanaşma ilə süni intellektin logistika sahəsində daha da dərinləşəcək və genişlənəcək tətbiqi, gələcəkdə daha çevik, dayanıqlı və müştəri yönümlü logistika sistemlərinin yaranmasını təmin edəcəkdir.

ƏDƏBİYYAT

1. **Russell, S., & Norvig, P. (2021).** Artificial Intelligence: A Modern Approach (4th ed.). Pearson.
2. Amazon Robotics and AI in Fulfillment Centers – Amazon Science (2023)
3. **DHL Trend Report: Artificial Intelligence in Logistics (2018).**
4. https://www.ibm.com/think/topics/ai-supply-chain
5. https://www.forbes.com/councils/forbestechcouncil/2023/08/17/the-true-role-of-ai-in-logistics/
6. https://sitec-it.ru/blog/1c-wms/iskusstvennyy-intellekt-v-logistike-5-konkretnykh-primerov-primeneniya/

Мурад Ильхам оглы Касимзаде
докторант Азербайджанского Университета Кооперации
Главный инженер по качеству данных, ООО "Капиталбанк"
e-mail: murad.gasimzade777@gmail.com

Интеграция современных технологий искусственного интеллекта в логистическую систему

Резюме

Логистическая отрасль, ответственная за транспортировку и хранение товаров, всегда была краеугольным камнем глобальной торговли и коммерции. С приходом Четвёртой промышленной революции логистика переживает глубокую трансформацию, управляемую искусственным интеллектом (ИИ – искусственный интеллект). Интеграция ИИ в логистику привела к значительным улучшениям в эффективности, точности и адаптивности. Цель исследования – проследить, как ИИ переопределяет логистику, начиная с основ технологии и переходя к её практическому применению в цепочках поставок.

Искусственный интеллект в первую очередь относится к разработке компьютерных систем, способных выполнять задачи, требующие человеческого интеллекта. К таким задачам относятся принятие решений, визуальное восприятие, распознавание речи и перевод языка. В логистике ИИ применяется посредством машинного обучения, аналитики данных, робототехники и автоматизации, что позволяет системам анализировать большие объёмы данных, оптимизировать процессы и принимать обоснованные решения с минимальным участием человека.

Цель исследования – углублённо проанализировать роль ИИ в управлении логистикой и цепочками поставок, а также изменения, которые он вносит в отрасль посредством современных технологий. Исследование направлено на изучение того, как ИИ интегрируется в ключевые области, такие как управление запасами, прогнозирование спроса, оптимизация маршрутов, автоматизация складов и обслуживание клиентов, а также на оценку эффективности этой интеграции.

В методологии исследования использован в основном аналитический и сравнительный подход. В качестве реального примера рассмотрена система логистики Amazon до и после внедрения ИИ, а также представлены практические наблюдения на основе опыта таких ведущих компаний, как DHL и Tesla. Одновременно функциональные возможности ИИ были проанализированы в контексте их влияния на различные логистические процессы.

Практическое значение работы заключается в демонстрации того, какую ценность приносит применение ИИ в оптимизации логистики и цепочек поставок для предприятий. Это способствует принятию стратегических решений с точки зрения снижения затрат, повышения эффективности, увеличения удовлетворённости клиентов и уменьшения рисков. Работа предлагает практические рекомендации как для государственного, так и для частного сектора.

Что касается оригинальности и научной новизны исследования, оно оценивает интеграцию ИИ в логистику не только с технической и функциональной точек зрения, но также в этическом, социальном и нормативном контексте. Подробный сравнительный анализ трансформации логистической системы Amazon является одним из немногих исследований в данной области и объединяет теоретические знания с реальным примером применения. Эта работа подчёркивает креативный и интеграционный потенциал ИИ в сфере логистики, предлагая новый научный взгляд на формирование моделей цепочек поставок нового поколения. Кроме того, она выделяется тем, что создаёт основу для будущих исследований в таких инновационных направлениях, как прогнозное техническое обслуживание, динамическое планирование маршрутов и персонализированная доставка.

Ключевые слова: логистика, искусственный интеллект, глобализация, блокчейн, оптимизация.

Murad Ilham Gasimzadeh,
doctorant, "Kapitalbank" OJSC, senior data quality specialist
e-mail: murad.gasimzade777@gmail.com

Integration of modern artificial intelligence technologies into the logistics system

Summary

The logistics industry, responsible for the transportation and storage of goods, has always been a cornerstone of global trade and commerce. With the advent of the Fourth Industrial Revolution, logistics is undergoing a profound transformation driven by Artificial Intelligence (AI). The integration of AI into logistics has led to significant improvements in efficiency, accuracy, and adaptability. The aim of this study is to explore how AI is redefining logistics, starting from the fundamentals of the technology and progressing toward its applications in supply chains.

Artificial intelligence primarily refers to the development of computer systems capable of performing tasks that typically require human intelligence. These tasks include decision-making, visual perception, speech recognition, and language translation. In logistics, AI is applied through machine learning, data analytics, robotics, and automation, enabling systems to analyze large volumes of data, optimize processes, and make informed decisions with minimal human intervention.

The objective of the research is to provide an in-depth analysis of the role of AI in logistics and supply chain management, and the transformative effects it brings to the sector through modern technologies. The study focuses on how AI is integrated into key areas such as inventory management, demand forecasting, route optimization, warehouse automation, and customer service, as well as evaluating the effectiveness of this integration.

The research methodology primarily employs an analytical and comparative approach. As a real-world case study, the logistics system of Amazon before and after the implementation of AI is compared. In addition, practical observations are presented based on the experiences of leading companies such as DHL and Tesla. At the same time, the functional capabilities of AI are analyzed in the context of their impact on various logistics processes.

The practical significance of the study lies in demonstrating how the application of AI in optimizing logistics and supply chains creates value for businesses. It contributes to strategic decision-making in terms of cost reduction, increased efficiency, improved customer satisfaction, and risk mitigation. The study offers practical recommendations for both public and private sectors.

In terms of originality and scientific innovation, the research evaluates the integration of AI into logistics not only from technical and functional perspectives but also within ethical, social, and regulatory contexts. The detailed comparative analysis of the transformation within Amazon's logistics system is one of the few studies in this field and combines theoretical knowledge with a real-world application example. This work highlights the creative and integrative potential of AI in logistics and presents a new scientific perspective on the formation of next-generation supply chain models. At the same time, it stands out by laying the foundation for future research directions, such as predictive maintenance, dynamic route planning, and personalized delivery.

Key words: logistics, artificial intelligence, globalization, blockchain, optimization.

III BÖLMƏ.
EKOLOGİYA PROBLEMLƏRİ VƏ RƏQABƏTQABİLİYYƏTLİ İSTEHSAL

UOT: 330.15; JEL: Q54

Arif Ələkbər oğlu ƏLƏKBƏROV
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin
“Sənayenin iqtisadiyyatı” kafedrasının müdiri,
iqtisad elmləri doktoru, professor
E- mail: arif.alakbarov@asoiu.edu.az
https://doi.org/10.30546/4.71.73001.2025.003.045

AZƏRBAYCANDA EKOLOJİ PROBLEMLƏRİN HƏLLİ MEXANİZMLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi Azərbaycanda ekoloji problemlərin həlli mexanizmlərinin gücləndirilməsi məsələlərinin tədqiq edilməsidir.

Tədqiqatın metodologiyası istiqamətində analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, Azərbaycanda ekoloji problemlərin araşdırılması üzrə dərc olunmuş elmi əsərlərə müraciət edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti ilk növbədə Azərbaycanda ekoloji problemlərin konseptual həlli yollarının müəyyənləşdirilməsi üzrə səmərəli fəaliyyət mexanizmlərinin hazırlanması ilə əlaqəlidir.

Tədqiqatın nəticələri: Məqalədə verilmiş təkliflərdən Azərbaycanda ekoloji problemlərin həlli üzrə tədbirlər kompleksinin hazırlanmasında istifadə olunması mümkündür.

Tədqiqatın orijinallığı və elmi yeniliyi: Başlıca elmi yenilik müasir dövrdə Azərbaycanda ekoloji problemlərin həlli mexanizmlərinə qlobal transformasiyalardan və çağırışlardan yanaşmağın vacibliyinin əsaslandırılmasıdır. Ekoloji problemlərin həlli istiqamətində fundamental araşdırmaların aparılması və adekvat tədbirlərin görülməsi müstəsna əhəmiyyət kəsb edir. Bunlarla bağlı olaraq, davamlı tədbirlərin görülməsi diqqətə çatdırılmışdır. Yeni şəraitdə Azərbaycanda ekoloji problemlərin həlli mexanizmlərinin gücləndirilməsi üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.

Açar sözlər: ekologiya, ekoloji problemlər, ətraf mühitin qorunması, tullantılar, ekoloji problemlərin həlli yolları, ekoloji problemlərin həlli mexanizmləri.

Giriş

Ekoloji problemlər və onların həlli yollarının araşdırılması qlobal səviyyədə olduğu kimi, Azərbaycanda da önəmli məsələlərdən biridir. Artan əhali sayı, sənaye inkişafı və qeyri-düzgün təbii resurs istifadəsi nəticəsində Azərbaycanda bir çox ekoloji problemlər meydana gəlmişdir. Bu problemlər arasında iqlim dəyişikliyi, havanın çirklənməsi, su resurslarının tükənməsi, torpaq deqradasiyası və bioloji müxtəlifliyin azalması ön plandadır. Bu səbəbdən, qeyd edilən bu və ya digər problemlərin həlli məqsədilə təsirli və güclü mexanizmlərin yaradılması vacibdir. XX əsrin ortalarından başlayaraq ekoloji problemlərin iqtisadiyyata təsiri ilə bağlı tədqiqatlar genişlənmişdir. Bu tədqiqatlar xarici ticarət əlaqələr, kənd təsərrüfatı sektoru, emal və miqrasiya prosesləri daxil olmaqla, mikro və makro səviyyələrdə ayrı-ayrı iqtisadi sektorlara təsirləri əhatə edir və müxtəlif ölkələr üzrə təhlillər aparılır. Bu araşdırmaların demək olar ki, hamısı elmi əsaslarla yaşıl

iqtisadiyyata keçidin vacibliyini vurğulayır. Artıq iqlim dəyişikliyinin ciddi qlobal problem olduğuna dair heç bir elmi şübhə yoxdur [7, s.68].

Azərbaycanda ekoloji problemlər müxtəlif sahələri əhatə edir və bir çox amillərdən irəli gəlir. Bu problemlər ölkənin coğrafi, iqtisadi və sosial xüsusiyyətlərinə uyğun olaraq müxtəlif sahələrdə özünü göstərir. XX əsrin ikinci yarısından Azərbaycanda mədənçıxarma və ağır sənayenin, nəqliyyatın inkişafı torpaqların örtüyünə antropogen təzyiqin bir neçə dəfə artmasına səbəb olmuşdur. Respublikada mədən işlərinin aparılması, üzvi və mineral sərvətlərin istehsalı, onların sonrakı emalı və daşınması torpaqların münbitliyini pozmuş, palçıq vulkanlarının materialları ilə örtülmüş ərazilərdə müxtəlif xarakterli ekoloji problemlər yaratmışdır [14, s.93].

Ekoloji problemlərin həlli mexanizmlərinin gücləndirilməsi proseslərinin tədqiqi

Azərbaycanda mövcud olan əsas ekoloji problemlərin bir qismini daha ətraflı nəzərdən keçirək. Havanın çirklənməsi müasir dövrün ən böyük ekoloji problemlərindən biridir. Bu, insanların sağlamlığına, təbiətə və bütün ekosistemlərə ciddi təsir göstərə bilər. Havanın çirklənməsi müxtəlif növ zərərli maddələrin atmosferə buraxılması ilə yaranır. Bu maddələr insan fəaliyyətindən, xüsusən sənaye müəssisələrinin fəaliyyəti, nəqliyyat vasitələrinin hərəkəti, kənd təsərrüfatı və ev təsərrüfatından gəlir. Sənaye müəssisələri, avtomobillərdən çıxan qazlar və atmosferə digər insan fəaliyyətlərinin reallaşdırılması nəticəsində atılan zərərli maddələr havanı çirkləndirir. Bu, əhalinin sağlamlığına mənfi təsir edir və müxtəlif nəfəs yolları xəstəliklərinə səbəb ola bilir. Azərbaycanda, xüsusilə Bakı şəhərində hava çirkliliyi böyük problemdir. Qlobal istiləşmə və havanın çirklənməsi nəticəsində baş verən iqlim dəyişikliyi insan həyatı üçün təsəvvür ediləndən də çox ciddi nəticələrə malikdir. Məsələn, kənd təsərrüfatına yararlı torpaqların azaldılması qida miqdarının azalması və ümumi aclığın başlanması təhlükəsi yaradır [11, s.34].

Havanın çirklənməsinin nəticələri ağciyər, ürək xəstəliklərinə, suyun, torpağın və bitki örtüyünün keyfiyyətinin pisləşməsinə, heyvan və bitki növlərinin məhvinə səbəb ola bilər. Bundan əlavə, havanın çirklənməsi iqlim şəraitinin dəyişməsinə və bəşəriyyətin ümumi sağlamlığının pisləşməsinə səbəb ola bilər ki, onları da həll etmək məqsədilə davamlı istehsal təcrübələri tətbiq edilməli və resurslardan səmərəli istifadə edilməlidir. Havanın çirklənməsi hər bir insanın həyatı üçün təhlükə yaradır, ona görə də bu problemə qarşı kollektiv mübarizə lazımdır. Qalıq yanacaqlardan istifadə etməyən enerji mənbələrinin seçilməsi zərərli maddələrin atmosferə atılmasını azaltmağa kömək edəcək. Atmosferə emissiyaların qarşısını alacaq, fabriklərdə və çirkləndiricilərin atmosferə atıldığı digər yerlərdə tullantıların təmizlənməsi və bərpası sistemlərini yaradan texnologiyalardan da istifadə oluna bilər. Yaşıl texnologiyaların populyarlaşdırılması, nəqliyyat və logistika sisteminin təkmilləşdirilməsi və ekoloji cəhətdən sağlam həyat tərzinin təbliği də vacibdir.

Azərbaycan müəssisələri hələ də ətraf mühitin qorunması tədbirlərini reallaşdırmaqdansa, çirklənməyə görə ödəmələrin daha əlverişli olduğu şəraitdə fəaliyyətlərini davam etdirirlər [6]. Bunun səbəbi isə, müəssisələr üçün ekoloji məsələlərin həllini təşviq edən iqtisadi alətlərin olmaması və çirklənməyə görə ödənilən məbləğin çox kiçik olmasıdır. Nəticədə, bu vəziyyət ətraf mühitin çirklənməsinin daha da artmasına yol açır [9, s.24]. Su resurslarının çirklənməsi dünyada qarşılaşılan ən önəmli ekoloji problemlərdən biridir və təbii ekosistemlərə və insan sağlamlığına ciddi təsir göstərir. Bu problem, müxtəlif növ çirkləndirici maddələrin su ehtiyatlarına qarışması nəticəsində meydana gəlir. Suyun çirklənməsi təbii su dövranını və su ehtiyatlarının keyfiyyətini zəiflədir. Azərbaycan əsasən Xəzər dənizinə axan çaylar vasitəsilə su ehtiyatlarına malikdir, lakin, bu su mənbələri sənaye və kənd təsərrüfatı sahələrində qeyri-rasional istifadə nəticəsində çirklənir. Sənaye müəssisələrindən çıxan kimyəvi tullantılar, ağır metallar, zəhərli maddələr və digər çirkləndiricilər su mənbələrinə qarışır və bu maddələr suyun kimyəvi və fiziki tərkibini dəyişdirərək canlılara və insanlara zərər verə bilər. Pestisidlər, kimyəvi gübrələr və digər kənd təsərrüfatı məhsulları suya qarışaraq, suyun ekosistemində balansın pozulmasına səbəb olur ki, bu da onun oksigen tərkibini azaldır və su canlılarının həyatını təhlükəyə atır. Şəhərlərdə yaranan kanalizasiya suları, nəm və məişət tullantıları, yağlar və digər qida qalıqları su mənbələrinə sızır ki, bu maddələr

də suyun təmizliyini və içməli suyun keyfiyyətini pisləşdirir. Təbii hadisələr, məsələn, vulkan püskürmələri, daşqınlar və ya torpaq sürüşmələri su hövzələrinə təbii çirkləndirici maddələrin qarışmasına səbəb olsa da, bu təbii proseslər insanın fəaliyyətindən daha az təsirli olur. Bu kimi problemlərin həlli məqsədilə su resurslarının səmərəli idarə edilməsi, təbii ekosistemlərin qorunması və çirklənmənin qarşısının alınması üzrə müvafiq siyasətlər reallaşdırılmalı, sənaye və kənd təsərrüfatı sahələrində ekoloji təmiz texnologiyalar tətbiq edilməli, çirkləndirici maddələrin su hövzələrinə buraxılmaması üçün ciddi tələblər qoyulmalıdır.

Azərbaycanda suyun təmizlənməsi və idarə olunması sahəsində də ciddi addımlar atılır. Bura daxili və beynəlxalq su nəqliyyatının təmizliyi, göllərin və çayların mühafizəsi, su sərhədlərinin idarə olunması kimi sahələr daxildir. Ölkəmizdə bir sıra milli parklar və qoruqlar yaratmaqla təbii ekosistemlərin qorunmasına da xüsusi diqqət yetirilir. Belə ərazilər yerli flora və faunanın mühafizəsi ilə yanaşı, turizm potensialının artırılmasında da böyük önəm daşıyır. Bütün bunlar Azərbaycanın son illərdə ətraf mühitin qorunması və inkişafı ilə bağlı reallaşdırdığı addımların yalnız bir neçə nümunəsidir. Bu istiqamətdə görülən işlər davam edir və ölkədə ətraf mühitin mühafizəsinə dair daha geniş miqyaslı təşəbbüslər reallaşdırılır [10, s.17].

Qeyd edək ki, Azərbaycanda ən çox 2024-cü ildə tullantı zərərsizləşdirilmişdir ki, bu da həmin il ərzində yaranan tullantıların 69,3%-ni təşkil etmişdir. 2023-cü ilə görə yaranan tullantıların həcmi 3649,6 min ton və ya 6,8%, zərərsizləşdirilən tullantıların həcmi isə 1886,2 min ton və ya 2,6 dəfə artmışdır [2]. 2024-cü ildə əvvəlki illərdə toplanmış qalıqlar da daxil olmaqla, sənaye və iqtisadiyyatın digər sahələrində yaranmış təxminən 22,2%-ə qədər istehsalat tullantıları müəssisələr tərəfindən xammal kimi istifadə olunub. Həmin tullantıların 15,3%-i ölkə daxilində satışa çıxarılıb, 1,4%-i isə ixrac edilib, habelə, 11,6% həcmində tullantılar zərərsizləşdirilmək məqsədilə poliqonlara daşınıb, 49,5%-i isə müəssisələrdə saxlanılıb. 2024-cü ildə müəssisələrin istehsalat prosesləri nəticəsində yaranan təhlükəli tullantıların həcmi 260,2 min ton olub ki, bu da ümumi tullantı həcminin 6%-ni təşkil edib. Bu tullantıların əsas hissəsi - 71,9%-i mədənçıxarma sənayesində fəaliyyət göstərən müəssisələrdə formalaşıb ki, onların böyük əksəriyyəti də Bakı şəhərində yerləşən müəssisələrə məxsus olub. Azərbaycanda 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35%, 2050-ci ilə qədər isə 40% azaldılması istiqamətində planlaşdırılan işlərin reallaşdırılması ekoloji problemlərin həllinə önəmli töhfə verə bilər. Məlumdur ki, 2024-cü ildə ölkə Prezidenti tərəfindən Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan yaşıl enerji zonası kimi elan edildikdən sonra bu ərazilərdə yaşıl enerji mənbələrindən səmərəli istifadə məqsədilə genişmiqyaslı layihələr reallaşdırılır [4].

Azərbaycan iqtisadiyyatında son illərdə həyata keçirilən islahatlar və strateji baxışlar qeyri-neft sektorunun inkişafını prioritet sahəyə çevirmişdir. Bu kontekstdə qeyri-neft sənaye müəssisələrinin rəqabət qabiliyyətinin artırılması həm milli iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi, həm də beynəlxalq bazarlarda mövqelərin genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Qlobal iqtisadi inteqrasiyanın dərinləşdiyi bir dövrdə müəssisələrin dayanıqlı rəqabət aparmaq imkanları onların texnoloji səviyyəsi, innovativ yanaşmaları və idarəetmə mexanizmləri ilə sıx bağlıdır. Rəqabət qabiliyyətini artırmaq üçün müəssisələr istehsal prosesində müasir texnologiyalara üstünlük verməli, məhsul keyfiyyətini beynəlxalq standartlara uyğunlaşdırmalı və insan kapitalına yatırımı prioritet hesab etməlidirlər. Yerli resurslardan səmərəli istifadə, enerji səmərəliliyi və ekoloji amillərin nəzərə alınması da rəqabət gücünü artıran mühüm şərtlərdən biridir. Rəqəmsallaşma və avtomatlaşdırma istiqamətində atılan addımlar istehsalın məhsuldarlığını artır-

maqla yanaşı, əməliyyat xərclərini azaltmağa və bazar tələblərinə daha çevik cavab verməyə imkan yaradır. Dövlətin bu sahəyə göstərdiyi dəstək, o cümlədən infrastruktur layihələri, sənaye parklarının yaradılması və güzəştli kredit imkanları müəssisələrin inkişafını stimullaşdıran əsas mexanizmlərdəndir.

Rəqabətqabiliyyətliliyin artırılması yolları

Rəqabət mühitində uğur qazanmaq üçün müəssisələr xarici bazarların tələblərini öyrənməli, brend dəyəri formalaşdırmalı və satış kanallarını modernləşdirməlidirlər. Qeyri-neft sənaye müəssisələrinin rəqabət qabiliyyətinin artırılması yalnız texniki və maliyyə göstəricilərinin yaxşılaşdırılması ilə deyil, həm də strateji yanaşma və sistemli inkişafla mümkündür. Müasir dövrdə sənaye müəssisələri yalnız məhsul istehsal edən struktur kimi deyil, həm də innovasiyalar yaradan, yeni bazarlar formalaşdıran və bilik əsaslı iqtisadiyyata töhfə verən vacib iqtisadi subyektlər kimi çıxış edirlər. Bu səbəbdən rəqabət qabiliyyətini yüksəltmək üçün müəssisələrin fəaliyyətində çeviklik, adaptasiya bacarığı və uzunmüddətli planlaşdırma əsas meyarlar sırasına daxil edilməlidir. İqtisadiyyatın qlobal çağırışlara cavab verə bilməsi üçün qeyri-neft sənaye sahələrində çalışan müəssisələr texnoloji transformasiyalara uyğunlaşmalı, rəqəmsal həllərə və avtomatlaşdırılmış idarəetmə sistemlərinə üstünlük verməlidirlər. [7, səh 85-92] Məhsulun dəyər zəncirində yerli komponentlərin payının artırılması, yəni xammal, əmək və texnologiya kimi resursların ölkə daxilində formalaşdırılması rəqabət mühitinə əlavə dəyər qatır. Bu istiqamətdə həm idxaldan asılılığın azalmasına, həm də daxili bazarın stimullaşdırılmasına şərait yaradır. Digər tərəfdən, müəssisələrdə korporativ idarəetmənin inkişafı, şəffaflığın artırılması və qərarların elmi əsaslarla qəbul edilməsi istehsalın səmərəliliyinə birbaşa təsir edir. İnsan kapitalına yönəlmiş investisiyalar, yəni işçi heyətinin təlimi, peşə ixtisaslarının artırılması və yaradıcı təşəbbüslərin dəstəklənməsi uzunmüddətli rəqabət üstünlüklərinin formalaşmasında mühüm rol oynayır. Sənaye müəssisələrinin ekoloji məsuliyyəti də rəqabət qabiliyyətinin yeni tələbləri sırasında yer almaqdadır. Yaşıl texnologiyaların tətbiqi, tullantıların idarə olunması və karbon emissiyalarının azaldılması yalnız ətraf mühitin qorunması baxımından deyil, həm də beynəlxalq bazarlarda mövcud olan ekoloji standartlara uyğun fəaliyyət baxımından vacib hesab olunur. Bu sahədə dövlətin rolu xüsusilə böyükdür. Hökumət tərəfindən qeyri-neft sənayesinə yönəlik qəbul edilən strateji sənədlər, milli prioritetlər və iqtisadi islahatlar müəssisələr üçün uzunmüddətli inkişaf platforması yaradır. Bu dəstəyin davamlı olması və bazar iqtisadiyyatı prinsiplərinə uyğun təşviq mexanizmlərinin tətbiqi müəssisələrin öz potensiallarını tam reallaşdırmasına imkan verir. [3 səh. 1-3]



Qrafikdən göründüyü kimi, texnologiyaların tətbiqi hazırda qeyri-neft sənaye müəssisələrinin rəqabət qabiliyyətinə təsir edən əsas amillərin ən başında gəlir. Bu da o deməkdir ki, yeni texnologiyaların tətbiqi bu proseslərdə ən önəmli ünsürlərdən biridir.

Kənd təsərrüfatına yönələn diqqət isə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması və kənd yerlərində sosial-iqtisadi inkişaf baxımından strateji əhəmiyyət daşıyır. Torpaq və su ehtiyatlarından səmərəli istifadə, müasir suvarma texnologiyalarının tətbiqi və aqrar elmlərin inkişaf etdirilməsi məhsuldarlığın artmasına şərait yaradır. Fermerlərin maarifləndirilməsi, onların kooperativlər vasitəsilə təşkilatlanması və dövlət dəstəyi mexanizmlərinin daha effektiv şəkildə həyata keçirilməsi kənd təsərrüfatının dayanıqlığını gücləndirir. Eyni zamanda, kənd təsərrüfatı məhsullarının emalı və saxlanılması infrastrukturunun inkişafı məhsul itkisini azaldır, əlavə dəyər yaradır və ixrac potensialını artırır. Rəqəmsal kənd təsərrüfatının tətbiqi isə sahənin idarə edilməsində çevikliyi təmin etməklə yanaşı, resursların optimallaşdırılmasına da imkan verir. Kənd təsərrüfatına davamlı dəstək iqtisadiyyatın qeyri-neft sektorunda balanslı inkişafı təmin etməklə yanaşı, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə də töhfə verir. Bu kontekstdə qeyri-neft sənaye müəssisələrinin və kənd təsərrüfatının paralel və bir-birini tamamlayan şəkildə inkişaf etdirilməsi bütövlükdə ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafına zəmin yaradır. [4] Qeyri-neft sektorunun gücləndirilməsi üçün yerli və xarici investisiyaların cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Xarici investorlar üçün əlverişli biznes mühiti yaradılması, hüquqi çərçivənin şəffaf və sabit olması, mülkiyyət hüquqlarının qorunması və bürokratik maneələrin aradan qaldırılması investisiya axınını stimullaşdıra bilər. Yerli sahibkarların da bu prosesə fəal şəkildə cəlb olunması, onların innovativ yanaşmalara açıq olması və rəqabət mühitində çevik qərarvermə qabiliyyətinin artırılması sənayenin modernləşməsinə səbəb olur. Sənaye və kənd təsərrüfatı arasında qarşılıqlı inteqrasiya da gücləndirilməlidir. Məsələn, kənd təsərrüfatı məhsullarının sənaye üsulu ilə emalı yalnız əlavə dəyər yaratmaqla kifayətlənmir, həm də kənd yerlərində yaşayan əhalinin gəlir imkanlarını artırır və urbanizasiyanın mənfi təsirlərinin qarşısını alır. Kənd təsərrüfatı sahəsində innovativ texnologiyaların, xüsusilə aqrotexniki və biotexnoloji yeniliklərin tətbiqi məhsul keyfiyyətinə və çeşidinə müsbət təsir göstərir. İqlim dəyişikliklərinə uyğun adaptasiya strategiyalarının hazırlanması və aqrar sığorta sisteminin gücləndirilməsi isə risklərin idarə olunmasında mühüm rol oynayır. Fermerlərin bazar məlumatlarına çıxışının artırılması və elektron ticarət imkanlarından istifadənin təşviqi onların istehsal etdiyi məhsulların daha geniş coğrafiyaya çıxarılmasına şərait yaradır. Aqrar sahədə gənclərin və qadınların fəaliyyətə cəlb olunması üçün xüsusi təşviq mexanizmləri hazırlanmalı, bu sahədə sosial təşəbbüslər dəstəklənməlidir.[8 səh. 32-36]

Qeyri-neft sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması kontekstində turizmin rolu çoxşaxəli və strateji əhəmiyyətə malikdir. Turizm sektoru özü-özlüyündə iqtisadiyyatın dinamik sahələrindən biri olmaqla yanaşı, digər qeyri-neft sahələrinin, o cümlədən yüngül sənaye, qida sənayesi, suvenirlər istehsalı və nəqliyyat xidmətlərinin inkişafına təkan verir. Ölkəyə gələn turistlərin sayının artması bu sahələrdə məhsul və xidmətlərə olan tələbatı yüksəldir ki, bu da yerli müəssisələrin istehsal gücünü artırmaq, keyfiyyəti təkmilləşdirmək və yeni bazarlara çıxmaq üçün əlavə imkanlar yaradır. Turist axını yerli istehsalçılar üçün real bazar rolunu oynayır və onların məhsullarını birbaşa istehlakçı ilə tanış etmək imkanı verir. Turizm müəssisələri ilə sənaye sahələri arasında əməkdaşlıq platformalarının qurulması, məsələn, otellərin yerli tekstil məhsulları ilə təmin olunması və ya restoranların yerli ərzaqlardan istifadə etməsi iqtisadi zənciri gücləndirir və milli brendlərin tanıdılmasına şərait yaradır. [2] Turizm potensialı olan bölgələrdə sənaye fəaliyyətlərinin diversifikasiyası həm regionların iqtisadi aktivliyini artırır, həm də paytaxt mərkəzliyinin qarşısını alır. Yerli sənaye müəssisələri üçün turizmin inkişafı məhsul dizaynı, qablaşdırma və marketinq strategiyalarının yenilənməsi zərurətini doğurur ki, bu da onların beynəlxalq rəqabətə hazırlıq səviyyəsini yüksəldir. Turizmin təşviqi ilə bərabər sənaye məhsullarının milli mədəniyyət və irslə bağlı təqdimatı istehsalçılara qeyri-ənənəvi və yüksək dəyərli bazar seqmentlərinə çıxmaq imkanı verir. Turizmin inkişafı qeyri-neft sənaye müəssisələri üçün həm yerli, həm də xarici bazarlarda tanıtım baxımından əlavə imkanlar yaradır. Ölkəyə gələn turistlər yerli istehsal olan

məhsullarla tanış olduqca, onların öz ölkələrində bu məhsullara tələbat yaratmaq ehtimalı artır, bu isə sənaye müəssisələri üçün ixrac imkanlarının genişlənməsi deməkdir. Bu xüsusilə suvenir, milli geyim, kosmetika və ərzaq məhsulları sahələrində fəaliyyət göstərən istehsalçılar üçün aktualdır. Turizm eyni zamanda dizayn, brendinq və məhsulun təqdimatı sahələrində yeniliklərə ehtiyac doğurur ki, bu da sənaye müəssisələrinin texnologiya və innovasiyalara daha çox investisiya qoymasına səbəb olur. Beləliklə, rəqabətə davamlı məhsul ortaya çıxır və bu məhsul beynəlxalq standartlara cavab verməklə yanaşı, milli xüsusiyyətləri də özündə əks etdirir. Turizm sənayesinin artan tələbatı fonunda logistik və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, enerji və rabitə xidmətlərinin keyfiyyətinin artırılması sənaye müəssisələrinin də fəaliyyətini asanlaşdırır və istehsal prosesində effektivliyi yüksəldir. Həmçinin, turizm sektorunda çalışan insan resurslarının sənaye müəssisələri ilə əməkdaşlıq etməsi nəticəsində xidmət mədəniyyəti və idarəetmə bacarıqları da qeyri-neft sənayesi sahəsinə sirayət edir. Bu, müəssisələrin korporativ imicinin formalaşmasında və müştəri yönümlü yanaşmanın tətbiqində mühüm rol oynayır. Nəticədə, sənaye məhsullarının yalnız texniki və funksional baxımdan deyil, həm də estetik və istifadəçi təcrübəsinə uyğun şəkildə istehsalı təmin olunur.[5]

Qeyri-neft sənaye müəssisələrinin rəqabət qabiliyyətinin artırılması üçün texnoloji modernləşmə əsas şərtlərdən biridir və bu prosesin məqsədi müəssisələrin beynəlxalq bazarda dayanıqlı mövqe qazanması, məhsul keyfiyyətinin yüksəldilməsi və istehsalın səmərəliliyinin artırılmasıdır. Ənənəvi istehsal üsulları ilə qlobal rəqabətə davam gətirmək mümkün olmadığından, sənaye müəssisələrinin müasir texnologiyalarla təchiz olunması, avtomatlaşdırılmış sistemlərin tətbiqi və rəqəmsallaşmanın genişləndirilməsi zəruri hala gəlmişdir. Bu, həm məhsul istehsalına sərf olunan vaxtı azaldır, həm də insan faktorundan qaynaqlanan xətaların minimuma endirilməsinə şərait yaradır. Rəqəmsal texnologiyaların, o cümlədən süni intellekt, böyük verilənlər analizi və IoT kimi alətlərin sənayedə tətbiqi müəssisələrin real vaxt rejimində qərar qəbul etməsini və resurslardan daha səmərəli istifadə etməsini təmin edir. Texnoloji modernləşmə eyni zamanda məhsulun dizayn mərhələsindən satışa qədər bütün proseslərin inteqrasiyasını mümkün edir və bu da bazar tələbinə çevik uyğunlaşma qabiliyyətini artırır. Yerli müəssisələrin rəqabət gücünü yüksəltmək üçün mühəndislik sahəsində araşdırma və inkişaf fəaliyyətlərinə dəstək verilməsi və texnoparkların fəaliyyətinin genişləndirilməsi önəmlidir. Bu infrastruktur təkcə yeni texnologiyaların tətbiqinə deyil, həm də yeni məhsul modellərinin yaradılmasına və elmi potensialın istehsalata inteqrasiyasına imkan yaradır. Texnoloji modernləşmə yalnız avadanlıq yenilənməsi ilə məhdudlaşmamalı, eyni zamanda idarəetmə sistemlərində innovativ yanaşmaların tətbiqini də əhatə etməlidir. Müasir ERP və CRM sistemləri müəssisələrə daxili prosesləri daha şəffaf və effektiv şəkildə idarə etməyə imkan verir, bu da müştəri məmnuniyyətinin artırılmasında və bazar payının genişlənməsində mühüm rol oynayır. Sənaye müəssisələrinin texnoloji cəhətdən inkişaf etməsi onların beynəlxalq sertifikatlar əldə etməsinə və xarici tərəfdaşlarla etibarlı əməkdaşlıqlar qurmasına şərait yaradır. Bununla yanaşı, ekoloji cəhətdən təmiz və enerji səmərəli texnologiyaların tətbiqi qlobal bazarlarda tələb olunan standartlara cavab vermək baxımından vacibdir və müəssisələrin dayanıqlı inkişaf modelinə keçidini sürətləndirir. Bu yolla həm istehsal xərcləri optimallaşdırılır, həm də ekoloji iz azaldılır. Texnologiya ilə yanaşı insan kapitalına sərmayə qoyuluşu da paralel həyata keçirilməlidir, çünki müasir avadanlığın idarəsi, təhlili və təmiri üçün yüksək ixtisaslı mütəxəssislərə ehtiyac artır. Peşəkar təlimlər və davamlı təhsil imkanları bu sahədəki bacarıqların yenilənməsinə və müəssisələrin innovasiya potensialının reallaşmasına xidmət edir. [9]

Qeyri-neft sektorunda müəssisələrin rəqabətqabiliyyətliliyinin artırılması üçün dövlət dəstəyi

Qeyri-neft sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması üçün dövlətin dəstəyi həlledici rol oynayır və bu dəstək bir neçə əsas istiqamət üzrə həyata keçirilməlidir. İlk növbədə, müəssisələr üçün əlverişli hüquqi və institusional mühitin yaradılması vacibdir ki, bu da onların sərbəst fəaliyyət göstərməsi, bazarda mövqelərini möhkəmləndirməsi və xarici rəqiblərlə bərabər şərtlərlə rəqabət aparması üçün şərait yaradır. Qanunvericilik bazasının sadələşdirilməsi, lisenziya

və icazə prosedurlarının asanlaşdırılması, bürokratik maneələrin aradan qaldırılması biznes mühitinin şəffaflığını və cazibədarlığını artırır. Dövlətin maliyyə dəstəyi isə müəssisələrin inkişafında xüsusi əhəmiyyət daşıyır. Bu dəstək vergi güzəştləri, subsidiya proqramları, güzəştli kreditlər və innovasiya layihələrinin maliyyələşdirilməsi formasında təqdim oluna bilər. Xüsusilə, yeni texnologiyaların tətbiqi və modern avadanlıqların alınması üçün ayrılan güzəştli maliyyə resursları müəssisələrin məhsuldarlığını artırır və onların beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirir. Dövlətin ixracatçı şirkətlərə verdiyi təşviqlər də mühüm alət sayılır, çünki bu yanaşma yerli məhsulların xarici bazarlarda rəqabət gücünü artırmaqla yanaşı, ixracatçı müəssisələrin sayının çoxalmasına təkan verir. Dövlət həmçinin infrastrukturun təkmilləşdirilməsi yolu ilə qeyri-neft sənayesinə dolayı dəstək göstərir. Sənaye parkları, logistika mərkəzləri, texnoparklar və ixtisaslaşmış emal zonalarının yaradılması müəssisələrə istehsal və satış zəncirinin bütün mərhələlərində əlavə üstünlüklər qazandırır. Belə infrastruktur mühitində fəaliyyət göstərən müəssisələr enerji, nəqliyyat, kommunikasiya və xidmət baxımından daha az xərcə və daha yüksək keyfiyyətə nail olurlar. Dövlət dəstəyi yalnız maddi və infrastruktur resursları ilə məhdudlaşmamalı, həm də insan kapitalının inkişafını əhatə etməlidir. Peşə təhsili və ixtisasartırma proqramlarının dəstəklənməsi, sənaye müəssisələri ilə təhsil ocaqları arasında əlaqələrin qurulması əmək bazarına uyğun kadr hazırlığını təmin edir və müəssisələrin işçi qüvvəsi ehtiyaclarını qarşılayır. Dövlətin elmi-tədqiqat və innovasiya yönümlü layihələri stimullaşdırması da müəssisələrin texnoloji səviyyəsinin yüksəldilməsinə səbəb olur. Elm və sənaye arasında körpü rolunu oynayan mexanizmlər formalaşdırıldıqda yeni məhsul və proseslərin yaradılması daha sistemli və davamlı şəkildə baş tutur. [10]

Qeyri-neft sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması üçün bazar rəqabəti mühüm həlqə kimi çıxış edir və bu amilin düzgün idarə olunması müəssisələrin uzunmüddətli inkişafını təmin edən əsas faktorlardandır. Sərbəst və ədalətli rəqabət mühiti formalaşdığı təqdirdə, istehsalçılar daha keyfiyyətli, daha münasib qiymətli və innovativ məhsullar təqdim etmək üçün daim öz fəaliyyətlərini təkmilləşdirməyə çalışırlar. Bu isə bütövlükdə sənaye sektorunun texnoloji yenilənməsinə, məhsuldarlığın artmasına və istehlakçı məmnuniyyətinin yüksəlməsinə gətirib çıxarır. Bazar rəqabətinin güclənməsi müəssisələri yeni satış strategiyaları tətbiq etməyə, markalaşmaya daha çox resurs ayırmağa və beynəlxalq standartlara uyğun fəaliyyət göstərməyə sövq edir. Rəqiblərin çoxluğu və dinamik bazar şərtləri yalnız güclü olan istehsalçıların bazarda qalmasına şərait yaradır ki, bu da ümumi iqtisadi sistemdə effektivliyin artmasına səbəb olur.

Qeyri-neft sənayesində bazar rəqabətinin təsirləri

Təsir Sahəsi	Əsas Məzmun
1. Fəaliyyətin Təkmilləşməsi	- Keyfiyyətli və innovativ məhsullar - Müvafiq qiymət strategiyaları - Texnologiyanın yenilənməsi
2. Marketinq və Satış	- Yeni satış strategiyalarının tətbiqi - Markalaşmaya investisiyalar - Müştəri yönümlü yanaşmalar
3. Sənaye Səviyyəsində Təsirlər	- Məhsuldarlığın artması - İstehlakçı məmnuniyyətinin yüksəlməsi - Effektiv iqtisadi sistemin təşəkkülü
4. Sahibkarlıq və İnnovasiya	- Risk alma mədəniyyətinin formalaşması - Yeni məhsul çeşidlərinin yaradılması - Xidmət keyfiyyətinin artırılması
5. KOB-ların İnkişafı	- Regionlarda iqtisadi fəallığın artması - Kiçik müəssisələrin çevikliyindən istifadə - Böyük şirkətlərə qarşı dayanıqlı modelin qurulması
6. Dövlət Tənzimləməsi	- Antimonopoliya nəzarəti - Bərabər imkanların təmin olunması - Rəqabət mühitinin qorunması
7. Beynəlxalqlaşma və İxraca Çıxış	- Daxili bazarda rəqabət təcrübəsi - Xarici bazarlara uyğunlaşma qabiliyyəti - Yerli brendin beynəlxalq mövqeyə çıxması

Rəqabət eyni zamanda sahibkarlarda riskalma mədəniyyətini formalaşdırır, onları yeni məhsul çeşidləri yaratmağa, xidmət keyfiyyətini artırmağa və fərqli bazarlara çıxış yolları axtarmağa vadar edir. [1] Bu şəraitdə innovasiya və elmi tədqiqatlar müəssisələrin yaşama və böyümə strategiyalarının əsasına çevrilir. Qeyri-neft sektorunda rəqabətin effektivliyi üçün dövlətin antimonopoliya nəzarəti də mühüm əhəmiyyət daşıyır. Bərabər imkanlar prinsipinə əsaslanan tənzimləmə siyasəti bazarın strukturunu sağlamlaşdırır və yeni iştirakçılar üçün maneəsiz daxilolmanı təmin edir. Kiçik və orta sahibkarlıq subyektlərinin bazarda öz yerini tapması rəqabət dərinliyini artırmaqla yanaşı, regionlarda iqtisadi fəallığın artmasına da müsbət təsir göstərir. Bu müəssisələr öz çevikliyi və innovasiyalara daha sürətli adaptasiya qabiliyyəti ilə böyük şirkətlərin təzyiqlərinə qarşı dayanıqlı fəaliyyət modelini inkişaf etdirə bilirlər. Bazar rəqabəti eyni zamanda müştəri yönümlü yanaşmanın formalaşmasına səbəb olur, çünki istehsalçılar öz məhsullarını yalnız istehsal baxımından deyil, həm də istifadəçi təcrübəsi və xidmət sonrası dəstək kimi aspektlərdən də inkişaf etdirmək məcburiyyətində qalırlar. Bu isə qeyri-neft sənaye müəssisələrinin dəyər zəncirində daha yüksək mövqe tutmasına və yerli brendlərin formalaşmasına şərait yaradır. Rəqabətli mühitdə fəaliyyət göstərən müəssisələr üçün beynəlxalq bazarlara çıxış da daha real və dayanıqlı olur, çünki onlar artıq daxili bazarda ciddi seçimlərlə qarşılaşdıqları üçün xarici bazarlarda da uyğunlaşma qabiliyyətinə malik olurlar.[6, səh.113-120]

Nəticə

Tədqiqatın ümumi nəticələri göstərir ki, Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı strateji əhəmiyyət daşıyır və bu sahənin ayrı-ayrı istiqamətlərində rəqabət qabiliyyətinin artırılması milli iqtisadi təhlükəsizliyin və dayanıqlı inkişafın əsas təminatçılarından biri hesab olunur. Əldə edilən nəticələrə əsasən, qeyri-neft sektorunun əsas qolları olan kənd təsərrüfatı, turizm, sənaye və xidmət sahələrinin hər biri üzrə rəqabətliliyin təmin olunması üçün fərqli, lakin bir-birini tamamlayan mexanizmlərin tətbiqi zəruridir.

Kənd təsərrüfatı sahəsində rəqabət qabiliyyətinin artırılması üçün müasir texnoloji yeniliklərə əsaslanan istehsal modellərinin tətbiqi, suvarma sistemlərinin təkmilləşdirilməsi, aqroparkların və emal müəssisələrinin genişləndirilməsi xüsusi önəm daşıyır. Bununla yanaşı, fermerlərə informasiya və texniki dəstəyin gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırılması və ixrac potensialının inkişaf etdirilməsi, bazar tələblərinə uyğun məhsul istehsalına keçid bu sahədə rəqabətliliyin əsas şərtlərindən biri kimi çıxış edir. Bu yanaşma ölkənin ərzaq təhlükəsizliyi ilə yanaşı, beynəlxalq bazarlarda mövqelərinin möhkəmlənməsinə də xidmət edir.

Turizm sektoru isə həm iqtisadi, həm də sosial baxımdan ölkənin regional inkişafına və məşğulluğun artırılmasına mühüm töhfələr verə biləcək sahədir. Tədqiqat göstərdi ki, turizm sahəsində rəqabət qabiliyyətinin artırılması üçün infrastrukturun müasirləşdirilməsi, xidmət keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması və regionların turizm brendinin yaradılması vacibdir. Bundan başqa, yerli və xarici turistlərə yönəlik fərqli turizm məhsullarının hazırlanması – ekoturizm, aqroturizm, sağlamlıq turizmi və mədəni turizm istiqamətləri üzrə innovativ təşəbbüslər rəqabət üstünlüyünün formalaşmasına təkan verir. Xüsusilə regionlarda turizm potensialının düzgün qiymətləndirilməsi və investorların cəlb olunması bu sahənin davamlı inkişafına şərait yarada bilər.

Sənaye sektorunda isə rəqabət qabiliyyətinin artırılması üçün innovasiyaların tətbiqi, rəqəmsallaşma, istehsalın lokallaşdırılması və ixrac yönümlü məhsul istehsalı əsas prioritetlər kimi müəyyən olunmuşdur. Yüngül və emal sənayesinin inkişafı, ixrac üçün beynəlxalq sertifikat və keyfiyyət standartlarının təmin olunması, eləcə də sənaye parklarının və klasterlərin təşviqi bu sahədə rəqabət qabiliyyətini gücləndirən əsas amillər sırasındadır. Yerli müəssisələrin müasir idarəetmə sistemlərinə keçidi və rəqabət mühitinə uyğunlaşma bacarığı onların uzunmüddətli bazar uğurunu təmin edə bilər.

Xidmət sektoru isə qeyri-neft iqtisadiyyatının ən dinamik və çevik sahələrindən biridir. Bu sahədə rəqabətliliyin artırılması üçün rəqəmsal xidmətlərin genişləndirilməsi, müştəriyönümlü

yanaşmanın tətbiqi, peşəkar xidmət personalının hazırlanması və texnoloji transformasiya vacib rol oynayır. Bank, logistika, təhsil və səhiyyə xidmətlərinin beynəlxalq standartlara uyğun şəkildə təşkili həm daxili bazarda, həm də xarici tərəfdaşlarla əməkdaşlıq imkanlarını genişləndirir. Xidmət sahəsində innovativ həllərin tətbiqi və rəqəmsallaşma həm vaxt, həm də resurs baxımından səmərəliliyi artırır ki, bu da rəqabət üstünlüyü baxımından mühüm faktordur.

Yekun olaraq vurğulamaq istərdim ki, tədqiqat nəticəsində belə qənaətə gəlinmişdir ki, qeyri-neft sektorunun əsas sahələrində rəqabət qabiliyyətinin artırılması yalnız kompleks yanaşma ilə mümkün ola bilər. Bu, dövlət siyasətinin davamlı dəstəyi, özəl sektorun təşəbbüskarlığı və beynəlxalq təcrübənin uğurlu tətbiqi ilə birgə həyata keçirilməlidir. Hər bir sahədə rəqabət mühitinin formalaşması, innovasiyaların təşviqi və institusional islahatların aparılması Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişaf strategiyası çərçivəsində prioritet istiqamət kimi dəyərləndirilməlidir.

ƏDƏBİYYAT

1. Acemoglu, D., & Restrepo, *P.* Artificial Intelligence, Automation, and Work. NBER Working Paper No. 24196 – 2019.
2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. Azərbaycan turizm sektorunun inkişafı: Strateji plan və perspektivlər. Bakı – 2022.
3. Becker, G. S. Human Capital: A Theoretical and Empirical Analysis, with Special Reference to Education. Chicago: University of Chicago Press. Page 1-3 - 1993
4. Dünya Bankı. Climate-Smart Agriculture: Scaling Digital Technologies for Resilience and Productivity. Washington, DC – 2022.
5. Hall, C. M., & Sharples, L. Food and Wine Tourism: A Global Perspective. Abingdon: Routledge – 2021.
6. Kərimov, N. Azərbaycan iqtisadiyyatında antimonopoliya siyasətinin inkişafı və rəqabət mühiti. İqtisadiyyat və Biznes, 12(4), 113-120 – 2017.
7. Məhərrəmov, B. Qeyri-neft sektorunda rəqabət və dövlətin dəstəyi. Azərbaycan İqtisadiyyatı, 14(2), 85-92 – 2020.
8. Məmmədli, A.T. Qeyri-neft sektoruna xarici investisiyaların cəlbi: Azərbaycan modeli. Bakı: "Elm" nəşriyyatı , səh 32-36 – 2020.
9. Schilling, M. A. Strategic Management of Technological Innovation. New York: McGraw-Hill Education – 2020.
10. UNIDO Industrial Development Report 2013: Sustaining Employment Growth: The Role of Manufacturing and Structural Change. United Nations Industrial Development Organization – 2013.

Мирзаур Вугар оглы Гусейнли
магистр, Университет "Одлар Юрду"
Э-почта: mirzaurhuseynli@gmail.com,

Наргиз Шамиль кызы Халыгова
Университет "Одлар Юрду",
кафедра "Экономики и экономических отношений" д.ф.э.
Э-почта: nara_xaliqova@mail.ru

Конкурентоспособность предприятий ненефтяной промышленности способы увеличения

Резюме

Цель исследования – Исследование посвящено изучению препятствий и проблем в повышении конкурентоспособности предприятий ненефтяной промышленности и созданию новых направлений в этом направлении.

Методология исследования - Исследование основывалось на системном и комплексном подходе с использованием как качественных, так и количественных методов. В основном применялись методы статистического анализа, сравнительного анализа, SWOT- и PEST-анализа. Методологическую базу дополнили также эмпирические наблюдения и экспертные мнения, проведенные в полевых условиях.

Практическая значимость исследования - Результаты исследования дают практические рекомендации для руководителей предприятий несырьевой промышленности. Эти результаты могут быть использованы при принятии стратегических решений, разработке инновационной политики и увеличении доли рынка. Это также может способствовать более эффективной разработке промышленной политики государственными органами.

Результат исследования – Исследование показало, что основными факторами, влияющими на конкурентоспособность в ненефтяной промышленности, являются инновации, технологическая модернизация, развитие человеческих ресурсов и государственная поддержка. Определено, что системный подход в этих направлениях создает условия для достижения конкурентного преимущества.

Оригинальность и научная новизна исследования - В исследовании впервые в условиях Азербайджана комплексно проанализированы факторы, влияющие на конкурентоспособность ненефтяных промышленных предприятий. Были проведены анализы, адаптированные к местной специфике, чего не хватало в существующей научной литературе, а также предложены новые подходы. Исследование также имеет научную инновационную ценность, представляя локальную версию модели отраслевой конкуренции.

Ключевые слова: ненефтяной сектор, конкурентоспособность, диверсификация экономики, инновационное развитие, промышленные предприятия, государственная поддержка, технологическая модернизация, рыночная конкуренция.

Mirzaur Vugar Huseynli
Master student of “Odlar Yurdu” University
Email: mirzaurhuseynli@gmail.com,

Nargiz Shamil Khalygova
“Odlar Yurdu” University,
Department of Economics and Economic Relations, Ph.d.
Email: nara_xaliqova@mail.ru

Ways to increase the competitiveness of non-oil industrial enterprises

Summary

Purpose of the study – The study is dedicated to investigating the obstacles and problems in increasing the competitiveness of non-oil industrial enterprises and creating new directions in this direction.

Research methodology – The study was based on a systematic and comprehensive approach, and both qualitative and quantitative methods were used. Mainly statistical analysis, comparative analysis, SWOT and PEST analysis methods were applied. Empirical observations and expert opinions conducted in the field also complemented the methodological base.

Practical significance of the study – The results of the study provide practical recommendations for managers of non-oil industrial enterprises. These results can be used in making strategic decisions, formulating innovation policy and increasing market share. They can also contribute to more effective development of industrial policy by state bodies.

Research result – As a result of the study, it was determined that the main factors affecting

competitiveness in the non-oil industry are innovation, technological modernization, human resources development and state support. It was determined that a systematic approach in these areas creates conditions for achieving competitive advantage.

Originality and scientific novelty of the study – The study comprehensively analyzed the factors affecting the competitiveness of non-oil industrial enterprises in the Azerbaijani context for the first time. Analyses were conducted in accordance with local specifics, which were lacking in the existing scientific literature, and new approaches were put forward. The study also carries scientific innovation value by presenting a local version of the sectoral competition model.

Key words: non-oil industry, competitiveness, economic diversification, innovative development, industrial enterprises, state support, technological modernization, market competition.

UOT 336.501

Könül Abdusalam qızı BÜYÜKER
i.f.d, Bakı Dövlət Universiteti
e-mail: k.buyuker@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.003.051

İNNOVATİV İNKİŞAF YOLU İLƏ MİLLİ İQTİSADİYYATIN RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI İMKANLARI

Xülasə

Tədqiqatın məqsədi innovativ inkişaf yanaşmaları vasitəsilə milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq imkanlarını öyrənməkdir. Burada diqqət mərkəzində dayanan əsas məsələlər innovasiyaların tətbiqinin iqtisadi məhsuldarlığa və dayanıqlı inkişaf göstəricilərinə təsiri, eləcə də rəqabət üstünlüklərinin formalaşdırılmasıdır.

Tədqiqatın metodologiyası: Tədqiqat analitik və empirik yanaşmaların birləşməsi əsasında aparılmışdır.

Tədqiqatın əhəmiyyəti: Bu tədqiqat milli iqtisadiyyatın modernləşdirilməsi və rəqabət qabiliyyətinin artırılmasında mühüm rola malikdir. İnnovasiyaların tətbiqi həm iqtisadiyyatın dayanıqlılığını təmin edir, həm də qlobal bazarlarda ölkənin mövqeyini gücləndirir. Bu iş iqtisadiyyatın müxtəlif sahələrində strateji qərar qəbul edənlər üçün praktik tövsiyələr təqdim edir.

Tədqiqatın elmi yeniliyi iqtisadi sektorlarda innovativ modellərin tətbiqi və onların səmərəliliyinin qiymətləndirilməsi, rəqabət qabiliyyətinin artırılmasında texnoloji inkişafın rolu üzrə yeni yanaşmalar şəklində əks etdirilmişdir.

Tədqiqatdan əldə olunan nəticələr sırasına innovasiyaların tətbiqinin iqtisadi artımın sürətləndirilməsinə və rəqabət üstünlüklərinin əldə edilməsinə səbəb olması, milli iqtisadiyyatın müxtəlif sektorlarında texnologiyaların tətbiqinin məhsuldarlığı artırması və resurslardan səmərəli istifadənin təmini, dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin inkişafının innovasiyaların iqtisadi sektorlara daha tez inteqrasiyasına şərait yaratması aiddir.

Tədqiqatın orijinallığı: Tədqiqatda milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması üçün innovativ yanaşmaların tətbiqi sahəsində tövsiyələr və praktiki həllər təqdim olunur. Tədqiqat həm nəzəri, həm də praktiki baxımdan qlobal və lokal iqtisadi şərtlər nəzərə alınaraq həyata keçirilmişdir. Bu yanaşma, mövcud tədqiqatlardan fərqli olaraq, konkret sahələrdə tətbiq edilə bilən innovasiya strategiyalarını təklif edir.

Açar sözlər: milli rəqabət qabiliyyəti, innovativ inkişaf, iqtisadi artım, texnoloji inkişaf, davamlı iqtisadiyyat.

Giriş

Bu gün sürətlə dəyişən qlobal iqtisadiyyatda milli rəqabət qabiliyyətinin artırılması iqtisadi strategiya üçün, xüsusilə beynəlxalq miqyasda güclü mövqe yaratmağa çalışan inkişaf etməkdə olan iqtisadiyyatlar üçün mühüm əhəmiyyət kəsb edir. İnnovasiya məhsuldarlığı artırmaq, iqtisadi artımı təşviq etmək və ölkələrə qlobal tendensiyalara uyğunlaşmaqda kömək etməklə rəqabət qabiliyyətini artırmaqda mühüm rol oynayır. Azərbaycan üçün innovasiyalardan istifadə davamlı inkişafa yol açа, neftdən asılılığı azalda və həyat standartlarını yaxşılaşdıra bilər. Ona görə də Azərbaycan iqtisadiyyatı daxilində innovativ strategiyaların tədqiqi aktualdır. Bu tədqiqat iqtisadiyyat, beynəlxalq biznes və dövlət siyasəti üzrə magistr səviyyəli tələbələri, tədqiqatçı və mütəxəssisləri hədəfləyir və innovasiyaların milli rəqabət qabiliyyətini necə gücləndirə biləcəyini dərindən təhlil edir. Məqalə Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsinə, sektorlar üzrə məhsuldarlığın artırılmasına və qlobal mövqeyinin yüksəldilməsinə kömək edə biləcək spesifik innovativ yanaşmaları müəyyən etmək məqsədi daşıyır, çətinliklərin öhdəsindən gəlmək və uzunmüddətli iqtisadi artıma nail olmaq üçün innovasiyalardan istifadəyə dair praktiki fikirlər təqdim edir.

İqtisadi İnkişafın Əsas Determinantları və Perspektivləri. Azərbaycanda bazar iqtisadiyyatına keçid müxtəlif subyektlərin maliyyə-təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi üçün mühüm ölçü kimi “rəqabətqabiliyyətlilik” anlayışını təqdim etmişdir. Qloballaşmanın və inteqrasiyanın sürətlənməsi ilə əlamətdar olan iqtisadi inkişafın hazırkı mərhələsi ayrı-ayrı ölkələrin, onların regionlarının və hətta bizneslərinin iqtisadi sağlamlığının qiymətləndirilməsində rəqabətqabiliyyətliliyin əsas meyar kimi istifadəsini zəruri etmişdir. Rəqabət qabiliyyətinin bu geniş tətbiqi onun qlobal iqtisadiyyatın dəyişən dinamikasına uyğunlaşmasında əhəmiyyətini əks etdirir.

Bu gün rəqabətqabiliyyətlilik iqtisadi uyğunlaşmada mühüm roluna görə bir çox fənlər üzrə geniş şəkildə öyrənilir. İqtisadi mühitlər inkişaf etdikcə, regionlar, sənayelər, müəssisələr və digər iqtisadi subyektlər müxtəlif səviyyələrdə və müxtəlif strategiyalar vasitəsilə uğur qazanmaq üçün xarici və daxili dəyişikliklərə uyğunlaşmalıdırlar. Bu uyğunlaşma tədbirləri miqyaslar üzrə rəqabət qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bununla belə, rəqabətqabiliyyətliliyə dair cari tədqiqatlar çox vaxt məhdud sayda qabaqcıl model və göstəricilərə əsaslanır ki, bu da rəqabət qabiliyyətinin həqiqi determinantları və müxtəlif miqyaslarda bu amillərin empirik etibarlılığı ilə bağlı davamlı müzakirələrə səbəb olur.

Firma səviyyəsində rəqabət qabiliyyəti adətən şirkətin rəqabətli bazar seqmentində və ya biznes mühitində bazar payını ələ keçirmək və müştəriləri cəlb etmək qabiliyyəti ilə əlaqədardır. Adam Smit və Devid Rikardo kimi iqtisadçıların təməl nəzəriyyələrindən tutmuş Michael Porter kimi müasir idarəetmə nəzəriyyəçilərinə qədər rəqabətqabiliyyətlilik anlayışı təkamül etməyə davam etmişdir. İdarəetmə tədqiqatlarında rəqabətqabiliyyətlilik kritik diqqət sahəsi kimi ön plana çıxmışdır. [1, s.668]. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən ən çox istinad edilən tərifl ərdən biri rəqabətqabiliyyətliliyi “bir ölkənin real bazarları qoruyub saxlamaq və artırmaqla beynəlxalq bazarların tələblərinə cavab verən mal və xidmətlər istehsal edə bilmə dərəcəsi” kimi təsvir edir. Azad və ədalətli bazarda uzunmüddətli perspektivdə əhalinin gəlirləri”. Milli məhsuldarlığa və gəlir artımına yönəlmiş bu İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının tərifi, Dünya İqtisadi Forumunun [16, s.19] rəqabət qabiliyyətini “bir ölkənin məhsuldarlıq səviyyəsini müəyyən edən institutlar, siyasətlər və amillər toplusu” kimi təyin edən daha geniş makroiqtisadi baxışı ilə ziddiyyət təşkil edir. Bu tərif lər iqtisadi məhsuldarlığa dair həm ənənəvi, həm də müasir perspektivləri əks etdirən rəqabətqabiliyyətliliyi anlamaq üçün müxtəlif yanaşmaları vurğulayır. [16, s.28].

Rəqabətqabiliyyətlilik bazarlarda qüvvələr balansının qiymətləndirilməsi üçün mühüm alət rolunu oynayır və milli iqtisadi artımın strateji istiqamətlərinin formalaşmasında mühüm rol oynayır. Əslində, rəqabət dinamikası iqtisadi tərəqqiyə töhfə verən amillərdən səmərəli istifadə edən iqtisadi mexanizmdir. Rəqabətin davranış anlayışı, rəqabətin məqsədlərinin və onun gətirdiyi davranışların müəyyənləşdirilməsinə daha çox diqqət yetirməklə inkişaf etmişdir.

Müəssisələrin rəqabətqabiliyyətliliyini araşdıran tədqiqatçılar üçün əsas problem rəqabətqabiliyyətliliyin effektiv idarə olunması üçün meyarların müəyyən edilməsi və ona təkan verən əsas mənbələrin və amillərin müəyyən edilməsindən ibarətdir. Bununla belə, rəqabətqabiliyyətliliyə dair perspektivlərin müxtəlifliyi onun tərifi ilə bağlı davam edən mübahisələrə və qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu qeyri-müəyyənlik, qismən, müəssisənin rəqabət qabiliyyətinin spesifik, hamı tərəfindən qəbul edilmiş xüsusiyyətlərinin olmaması ilə əlaqədardır. Nəticə etibarı ilə, rəqabətqabiliyyətlilik anlayışı tədqiqatçılar tərəfindən istifadə olunan konkret kontekstdən və ya analitik çərçivədən asılı olaraq çox vaxt fərqli şəkildə şərh olunur.

Rəqabətqabiliyyətlilik və innovasiya strategiyaları: çağırışlar və perspektivlər. Rəqabətqabiliyyətlilik anlayışı millətlərdən tutmuş ayrı-ayrı müəssisələrə qədər bütün səviyyələrdə iqtisadi gücün qiymətləndirilməsində mərkəzi konsepsiyaya çevrilmişdir. Qloballaşma və iqtisadiyyatların qarşılıqlı əlaqəsi rəqabət qabiliyyətini iqtisadi siyasətlərin, institusional amillərin və bazar şəraitinə strateji uyğunlaşmanın güclü təsiri altında olan mürəkkəb və çoxölçülü konstruksiyaya çevirmişdir. Azərbaycan kimi ölkələr üçün rəqabətqabiliyyətliliyi anlamaq və inkişaf etdirmək iqtisadi inkişafın davam etdirilməsi, həyat standartlarının yüksəldilməsi və qlobal iqtisadi arenada

möhkəm mövqe əldə etmək üçün ayrılmaz şərtdir. Tədqiqatçılar və siyasətçilər rəqabətqabiliyyətlilik anlayışlarını təkmilləşdirməyə davam etdikcə, bu konsepsiya getdikcə bir-biri ilə əlaqəli və rəqabətli dünyanın təqdim etdiyi çağırışlar və imkanları idarə etmək üçün vacib olaraq qalacaq.

Qiymətləndirmənin əsas göstəricisi kimi rəqabətqabiliyyətlilik bir neçə elementi əhatə edir:

- Mövzular: istehlakçılar, dövlət qurumları, investorlar və s.
- Obyektlər: məhsullar, xidmətlər, bizneslər, təşkilatlar, sənayelər, regionlar və ya bütün ölkələri əhatə edə bilər.
- Qiymətləndirmə meyarları: inkişaf tempi, bazar mövqeyi, qiymət, ödəmə qabiliyyəti, keyfiyyət və s. kimi amillər.

Bu onu deməyə əsas verir ki, “rəqabət qabiliyyəti” anlayışı konkret məqsəd və vəzifələrdən asılı olaraq müxtəlif perspektivlərdən tətbiq oluna bilər. Trofimovanın fikrincə, “obyektin rəqabətqabiliyyətliliyi konkret göstəricilərlə ifadə olunan, rəqiblərə nisbətən obyektin bazar mövqeyini əks etdirən iqtisadi kateqoriyadır” [10, s.16].

Hazırda milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması bütün ölkələr üçün əsas məqsəddir, çünki bu, milli iqtisadiyyatın səmərəliliyinin qiymətləndirilməsinin əsas xarakteristikasıdır. Milli iqtisadiyyat daxilində hər hansı bir sektorun (məsələn, klaster, yeni istehsal sistemi) fəaliyyət mühiti onun iqtisadi münasibətlərinə təsir edən şərait və amillərlə formalaşır. Sənaye fəaliyyətinin qiymətləndirilməsinə sistemli yanaşma hər hansı istehsal prosesinin həm xarici, həm də daxili mühitlə transformasiya sistemi kimi fəaliyyət göstərdiyini başa düşməyə əsaslanır. Bu nöqteyi-nəzərdən milli iqtisadi sektor kompleksi iki mühüm komponenti özündə birləşdirir (4, s.64-65):

- Xarici mühit: sistemin giriş və çıxışlarını, xarici dünya ilə qarşılıqlı əlaqəni və əks-əlaqə mexanizmlərini əhatə edir.
- Daxili mühit: arzu olunan nəticələrə nail olmaq üçün idarəetmənin obyektə təsirini istiqamətləndirən bir-biri ilə əlaqəli elementlərdən ibarətdir.

Azərbaycan neftdən asılı olan dövlət kimi öz iqtisadiyyatını şaxələndirməkdə Qərbi Avropanın Norveç və Hollandiya kimi qabaqcıl inkişaf etmiş ölkələrinin təcrübəsindən yararlana bilər. Tədqiqat nöqteyi-nəzərindən Norveçin təcrübəsi xüsusilə aktualdır. Azərbaycan kimi, Norveçin neft və qaz sənayesi də ÜDM-in ən böyük payını təşkil edir və bütün dəniz neft və qaz yataqları dövlətə məxsusdur. Sənayenin, o cümlədən karbohidrogen ehtiyatlarının idarə edilməsinə Norveç Kralı nəzarət edir və Neft və Energetika Nazirliyi tərəfindən idarə olunur. Neft və qaz gəlirlərinin böyük hissəsi Pensiya Fonduna yönəldilir (https://nbim.no/en/the-fund/about-the-fund/).

Azərbaycan 1960-cı illərdə iqtisadi böhranla üzləşmiş və neft sektorundan həddən artıq asılı olduğuna görə “Holland xəstəliyi” kimi tanınan Hollandiyadan da dərs ala bilər. Ölkə iqtisadiyyatını şaxələndirmək və digər sektorlarda rəqabətədavamlı inkişafı təşviq etməklə bu böhrandan çıxıb.

Azərbaycan öz milli iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq üçün diqqətini qeyri-neft sektorunun inkişafına yönəltməlidir. Bu inkişafın prioritetləri aşağıdakıları əhatə edə bilər:

- ✓ Birincisi, iqtisadiyyatın şaxələndirilməsi planlarının yaradılması və holland xəstəliyinin qarşısını almaq üçün tədbirlər görülməsi;
- ✓ Müxtəlif sənaye sahələrinin yaradılması və genişləndirilməsi və ixrac üzrə beynəlxalq əməkdaşlığın təşviqi;
- ✓ Xarici valyutanın yaradılması və beynəlxalq ziyarətçilərin cəlb edilməsi üçün turizm sektorunun təşviqi;
- ✓ Təhsil və bacarıqların inkişafını təkmilləşdirmək üçün neft və qaz gəlirlərinin istifadəsinə diqqət yetirməklə insan kapitalına sərmayə qoymaq;
- ✓ Rəqabət qabiliyyəti aşağı olan sektorların aradan qaldırılması və əhali arasında rəqəmsal və müasir bacarıqların artırılması;
- ✓ İnsanların paytaxtdan digər bölgələrə miqrasiyasını təşviq etmək üçün regional siyasətlərin işlənib hazırlanması.

Mövcud qlobal iqtisadi mənzərə inkişaf etməkdə olan ölkələr arasında artımın yavaşlaması,

əsas bazarlarda rəqabətin artması və iqtisadi tərəqqiyə yönəlmiş elmi nailiyyətlərin artması ilə xarakterizə olunur. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadi artımı böyük ölçüdə dövlətin, milli kapitalın və daha geniş elmi ictimaiyyətin maraqlarına uyğun gələn innovasiyaları təşviq edən milli siyasətlərdən asılıdır. Milli iqtisadiyyatlarda innovasiyanın əsas hərəkətverici qüvvəsi sahibkarlıq subyektlərinin innovativ fəaliyyətdə fəal roludur [5, s.564].

Son tədqiqatlar sənaye komplekslərinin və şirkətlərin rəqabətədavamlı inkişafının monitorinqi və təmin edilməsinə yönəlib, baxmayaraq ki, bu məsələnin bir neçə aspekti həllini tapmayıb. İqtisadi rəqabət qabiliyyətinin təhlili üçün mövcud üsullar çox vaxt əməktutumlu olur, bu da rəqabətqabiliyyətliliyin sistematik şəkildə qiymətləndirilməsini və ya müntəzəm olaraq monitorinqini çətinləşdirir. Bundan əlavə, bu üsullar zamanla rəqabətqabiliyyətlilikdəki dinamik dəyişiklikləri nəzərə almır və ya bu dəyişiklikləri şərtləndirən amilləri müəyyən etmir [9, s.512].

İqtisadi rəqabət qabiliyyətini artırmaq üçün yerli şirkətlərin rəqabət qabiliyyətinin ölçülməsi üçün effektiv metodların müəyyən edilməsi çox vacibdir. Mövcud populyar metodların təhlili göstərir ki, onların əksəriyyəti məhdud praktik tətbiq təklif edir. Tipik olaraq, onlar yalnız rəqabətqabiliyyətliliyin cari səviyyəsini qiymətləndirə bilər, bu da zamanla rəqabətqabiliyyətlilikdəki dəyişiklikləri izləməyi və ya bir neçə rəqibi müqayisə etməyi çətinləşdirir [9, s.513].

Dinamik tərəqqi və dəyişən biznes şəraiti ilə birlikdə innovasiyaya əsaslanan iqtisadiyyata doğru keçid müəssisələrin innovativ potensialını artırmaq üçün daha səmərəli alətlər qəbul etmələrinin zəruriliyini vurğulayır. Bu amillər şirkətləri daim inkişaf edən biznes mühitində ümumi rəqabət qabiliyyətini artırmaq üçün yeni strategiyalar kəşf etməyə məcbur edir.

İqtisadiyyatda rəqabət üstünlüklərinə nail olmağın bir yolu innovativ iqtisadiyyatın tələbləri ilə uyğunlaşan inteqrasiyadır. İnteqrasiya prosesləri regionda, xüsusən də sənaye sektorunda lider mövqe yaratmaq kimi bir sıra strateji məqsədlərə nail olmağa kömək edir [8, s.23]. Bu məqsədlərə aşağıdakılar daxildir:

a) satış həcminin artırılması, xərclərin minimuma endirilməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi və idarəetmə texnologiyalarında innovasiyaların təşviq edilməsi;

b) məhsulların və bütün müəssisənin rəqabət qabiliyyətinin artırılması;

c) kapitallaşmanın artırılması.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının tərəqqisi innovasiya və inteqrasiya prosesləri ilə sıx bağlıdır. Qlobal tendensiyalar göstərir ki, birləşmələr və satınalmalar vasitəsilə müəssisələr daha geniş istehlakçı bazası üçün daha yaxşı məhsullar istehsal etmək imkanlarından istifadə edə bilərlər. Müasir şəraitdə inteqrasiyanın ən təsirli forması konqlomerat birləşmələridir, xüsusən də innovasiya sektoru daxilində şaquli inteqrasiyaya və ya tamamlayıcılığa əsaslanan birləşmələrdir. Bu yanaşma böhran zamanı iqtisadiyyatın innovativ potensialını gücləndirmək, innovasiyalardan istifadə üçün əlavə imkanlar yaratmaq və rəqabət üstünlüklərini təmin etmək məqsədi daşıyır [8, s. 23].

Bir neçə tədqiqatçı əsas elementlər sistemi vasitəsilə iqtisadi rəqabət qabiliyyətini artırmaq üçün innovativ potensialı təsvir edir:

- Maliyyə potensialı: Yeni məhsullar, xidmətlər, proseslər, texnologiyalar və sistemlər istehsal etmək üçün zəruri maliyyə resurslarının mövcudluğu;
- İntellektual potensial: Yenilikləri inkişaf etdirməyə, istehsal etməyə, həyata keçirməyə və idarə etməyə qadir olan yüksək ixtisaslı kadrların (rəhbərlər, işçilər və işçi heyəti) olması;
- Təşkilati və idarəetmə potensialı: İnnovasiyaların tətbiqi və innovativ strategiyaları dəstəkləmək üçün biznes bölmələri arasında əlaqələrin qurulması üçün effektiv təşkilati struktur;
- Tədqiqat potensialı: Tədqiqat üçün lazım olan tədqiqat resurslarının (patentlər, lisenziyalar, nou-hau) və maddi-texniki təminatın (alətlər, avadanlıqlar, eksperimental baza) olması;
- İstehsal və texnoloji potensial: Yeniliklərin yaradılması üçün zəruri istehsal və texnoloji təminat (maşın, avadanlıq, alətlər, texnologiyalar);
- Marketinq potensialı: Yenilikləri təqdim etmək və təşviq etmək üçün marketinq alətlərinin, texnikalarının və idarəetmə strategiyalarının mövcudluğu;

➢ İnformasiya və metodoloji potensial: İstehsal və təsərrüfat fəaliyyətini idarə etmək üçün inteqrasiya olunmuş avtomatlaşdırılmış sistemin mövcudluğu, bu sahədəki inkişaflar haqqında məlumat əldə etmək imkanı.

Fəal innovasiya siyasəti milli şirkətlərin rəqabət qabiliyyətinin artırılmasında həlledici amildir. Biznesin rəqabət qabiliyyəti onun bazar payının və gəlirlilik göstəricilərinin, xüsusən texnologiya, mal və maliyyə baxımından artırılması ilə formalaşır. İnnovasiya birbaşa şirkətin rəqabət üstünlüyünə təsir edir və beləliklə, innovasiya fəaliyyətinin buna necə töhfə verdiyini əks etdirən model hazırlana bilər.

İstehsal amillərinə əsaslanan milli iqtisadi rəqabət qabiliyyətinin inkişafı daha çox ölkənin mövcud resurs potensialından, o cümlədən təbii ehtiyatlardan, iqlimdən və əmək ehtiyatlarından asılıdır. Bununla belə, yalnız istehsal amilləri ilə idarə olunan rəqabət qabiliyyəti məhduddur, çünki daha az sənaye beynəlxalq rəqabət qabiliyyətini yüksək səviyyədə saxlaya bilər. Adam Smitin təsvir etdiyi kimi mütləq üstünlüklərə əsaslanan bu rəqabətlilik dövrü bütün xalqların keçdiyi tarixi sənayedən əvvəlki mərhələni təmsil edir.

Ölkənin rəqabətqabiliyyətliliyinin növbəti mərhələsi rəqabət qabiliyyətinin artırılmasında əsas hərəkətverici qüvvəyə çevrilən investisiyalarla bağlıdır. Ölkənin rəqabət üstünlüyü investisiya imkanları və fəaliyyət səviyyələri ilə formalaşır. İnvestisiyalar vasitəsilə ölkə öz resurs bazasını gücləndirərək mövcud istehsal amillərini təkmilləşdirə və yenilərini yarada bilər. Buna görə də, milli iqtisadiyyat daxilində ixtisaslaşmış sektorların rəqabət qabiliyyətini artırmaq üçün investisiya fəaliyyətini təşviq edən dövlət siyasətinin hazırlanması vacibdir.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin inkişafı və innovasiya əsaslı yanaşmalar. Milli iqtisadiyyatda innovasiyaya əsaslanan rəqabət qabiliyyətinin inkişafı onun bütün əsas komponentlərinin mövcudluğu ilə xarakterizə olunur. Bu mərhələdə iqtisadiyyat milli istehsalçıların qlobal səhnədə səmərəli rəqabət apara bildiyi daha böyük sənaye kompleksinə malikdir. Bu mərhələ innovasiyaya təkan verən yeni, ixtisaslaşmış istehsal amillərinin meydana çıxması ilə xarakterizə olunur. Əsas amillərin istifadəsi mahiyyət etibarilə məhdud olsa da, bu məhdudiyyət rəqabət qabiliyyətinin artırılması ehtiyacını doğurur. Mühüm resurs əsaslı sektorlar genişləndikcə daxili tələbatın mürəkkəbliyi artır və çoxmillətli və transmilli korporasiyaların qlobal xarakteri daxili tələbi beynəlxalq tələbata çevirir. Rəqabət qabiliyyətinin bu mərhələsi müxtəlif dövrlərdə bu səviyyəyə çatmış ABŞ, Almaniya, Yaponiya kimi yüksək inkişaf etmiş ölkələr üçün xarakterikdir.

Milli iqtisadiyyat daxilində rəqabətqabiliyyətli sektorlar bərabər paylanmayıb və səmərəli inkişaf üçün bu sektorlar müvafiq klaster istehsal sistemlərinə inteqrasiya edilməlidir. Milli iqtisadiyyatda rəqabətqabiliyyətlilik amillərinin qarşılıqlı təsiri konkret kontekstlərdə rəqabət üstünlüklərinin təhlilinə imkan verən bir-biri ilə əlaqəli sənaye klasterlərinin formalaşması ilə nəticələnir. Milli iqtisadiyyat daxilində rəqabətqabiliyyətli sənayelər şaquli və üfüqi əlaqələr vasitəsilə əlaqələndirilir və onların böyüməsi yeni rəqabətqabiliyyətli sektorların yaranmasına səbəb olur. Bu sənayelərin klasterləşməsi klasteri təşkil edən sektorlar arasında qarşılıqlı dəstəyi gücləndirir.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətini müəyyən edən amillərin təsnifləşdirilməsi metodologiyasında Sokolenko S.İ. bir neçə klaster tipini müəyyən edir [18, s.437]:

- Rəqabət amilləri: Bu amillər yüksək rəqabət qabiliyyətli məhsulların təklif edilməsi ilə bağlıdır.
- Strateji amillər: Bunlar konkret regionların inkişafı üçün həlledici əhəmiyyətə malikdir.
- Sonradan formalaşan amillər: Bu amillər zamanla yüksək artım tempinə səbəb olur.
- Potensial amillər: İqtisadi inkişaf üçün istifadə edilə bilən yüksək səviyyəli səriştə ilə xarakterizə olunur.
- Yetkin amillər: Məsələn, aşağı işsizlik dərəcələri kimi amillər.
- Sabitləşdirici amillər: Bunlar iqtisadiyyatda diversifikasiya səviyyəsinin artırılmasına kömək edir.

Sənayenin və ya istehsalçının rəqabət qabiliyyətinə təsir edən bəzi amillər nəticə vermək üçün daha çox vaxt tələb edir və onların uzunmüddətli təsiri baxımından strateji hesab olunur. Ona görə

də hər hansı strateji xarici faktora əsaslanan rəqabət üstünlüyünə nail olmaq taktiki amillərlə müqayisədə daha uzun çəkir.

Rəqabətlilik indeksi ölkənin qlobal bazarda rəqabət qabiliyyətini ölçür və çox vaxt müxtəlif iqtisadi və sosial göstəricilərə əsaslanır. Əsas rəqabətqabiliyyətlilik göstəricilərinə aşağıdakılar daxildir:

1. Adambaşına düşən ÜDM: Adambaşına düşən iqtisadi aktivliyi ölçür, tez-tez ölkələr üzrə iqtisadi inkişaf səviyyələrini müqayisə etmək üçün istifadə olunur.
2. İnflyasiya dərəcəsi: Mal və xidmətlərin qiymətinin artma dərəcəsi. Yüksək inflyasiya qiymətləri qaldıraraq rəqabət qabiliyyətini azaldır.
